

# QANUNÇULUQ

**HÜQUQ JURNALI**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı**




**№ 6 - iyun 2018**

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



***Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir***

***İlham ƏLİYEV,***

***Azərbaycan Respublikasının Prezidenti***



QANUNÇULUQ

HÜQUQ JURNALI

№ 06 İYUN 2018

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
“Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
“Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:


**RƏSMİ MƏLUMAT**

TANAP - Trans-Anadolu qaz kəmərinin açılışı olub ................................5
Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə hərbi parad ................................7





**BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**

Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louhun Azərbaycan Respublikasına səfəri ................................10





**ƏDLİYYƏ NAZİRLİYİNDƏ**

Milli Qurtuluş günü ədliyyə orqanlarında qeyd olunub ..........................17
Dünya Bankı ilə ədliyyə sahəsində birgə layihələr uğurla həyata keçirilir ..........................19
Ədliyyə naziri Siyəzəndə vətəndaşları qəbul edib ................................20
Ədliyyə Nazirliyində görüş ................................21
Notariat fəaliyyəti dövlət başçısının tapşırıqlarına uyğun müasirləşir ..22





**BEYNƏLXALQ KONFRANS**

Ombudsmanların XV Bakı Beynəlxalq Konfransı ................................24
"Rəqəmsal reallıq şəraitində hüquq" mövzusunda XIII Beynəlxalq konfrans ................................26





**MƏQALƏ**

Azər Cəfərov. Ədalət mühakiməsi prosesinin rəqəmsallaşdırılması: nailiyyətlər, perspektivlər, problemlər (Azərbaycanın təcrübəsi əsasında) - rus dilində ................................27



**TƏDBİRLƏR, YIĞINCAQLAR**

Avropa Şurasına üzv ölkələrin həbsxana və probasiya xidmətləri rəhbərlərinin 23-cü konfransı ................................32
Azərbaycan "HELP" proqramının təşviqi üzrə onuncu yerə yüksəlib....33
Azərbaycanlı hakim Avropa Şurasının mükafatı ilə təltif olunub ..........34
Bələdiyyələrə metodiki köməklik məqsədilə tədbirlər davam etdirilir ................................34
Ədliyyə orqanlarında Uşaqların Beynəlxalq Müdafiə Günü qeyd olunub................................35







**YENİ QANUNLAR, FƏRMANLAR...**

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1094-VQD nömrəli Qanunu................................36
"Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1096-VQD nömrəli Qanunu................................38
"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1099-VQD nömrəli Qanunu ................................39

## YENİ QANUNLAR, FƏRMANLAR...


"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 1 may tarixli 1101-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu......39

"Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1146-VQD nömrəli Qanunu ............................................40

"Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 113 nömrəli Fərmanı ..................40

"Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 115 nömrəli Fərmanı ...........................................................................41


## KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARLARI


"Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472.1 və 1306-cı maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı..................42




# TANAP - Trans-Anadolu qaz kəmərinin açılışı olub

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib*

**İyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP - Trans-Anadolu qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Qeyd olunmalıdır ki, Trans-Anadolu qaz kəməri layihəsinin icrası müstəqilliyimizin daha bir mühüm hadisəsi kimi tarixə düşüb. Azərbaycanın və Türkiyənin möhkəm işbirliyi, qardaşlığa və dostluğa söykənən fəaliyyətləri bu strateji layihənin uğurla reallaşmasında əhəmiyyətli rol oynayıb. Ölkəmizin iqtisadi qüdrətinin, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolunu bir daha təsdiqləyən TANAP bununla da Azərbaycanın dünyanın siyasi və iqtisadi həyatındakı yerini və özəlliyini nümayiş etdirib.

TANAP qaz kəmərinin istifadəyə verilməsi mərasimi bu möhtəşəm layihə haqqında video-çarxın nümayişi ilə başlayıb. Əvvəlcə Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində bir çox uğurlu layihələrin həyata keçirildiyi, "Enerjinin İpək yolu" adlandırılan TANAP layihəsinin həm də qardaşlığın daha da möhkəmlənməsinə qoyulan sərmayə olduğu bildirilib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış edib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın yorulmaz fəaliyyəti nəticəsində Türkiyənin dünya çapında böyük gücə çevrildiyini deyən dövlətimizin başçısı bildirib ki, Türkiyənin gücü bizim gücümüzdür və bizim gücümüz birliyimizdədir. Bu gün dünyada bir-birinə bu qədər yaxın olan, bir-birini bu qədər dəstəkləyən ikinci ölkələr tapmaq çox çətindir. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı həm ölkələrimiz üçün, həm xalqlarımız üçün, bölgəmiz üçün, Avrasiya üçün önəmli amildir.

Prezident İlham Əliyev TANAP-ın istismara verilməsinin Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürü olduğunu, ölkələrimizin XXI əsrin enerji tarixini birlikdə yazdığını vurğulayıb, bundan əvvəlki birgə həyata keçirilən layihələri - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərinin, Cənub Qaz Dəhlizinin istifadəyə verilməsini qeyd edib.

Şimali Kipr xalqının lideri Mustafa Akıncı TANAP-ın əhəmiyyətindən danışaraq bu cür nəhəng layihələrin Türkiyə ərazisindən keçməsinin regional təhlükəsizliyə və sabitliyə töhfə verdiyini bildirib.

Serbiya Prezidenti Aleksandr Vuçiç çıxış edərək strateji bağlantı funksiyasını yerinə yetirən TANAP layihəsinin təbii qaz dəhlizinin mühüm amili olduğunu söyləyib, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edən bu layihənin Cənub-Şərqi Avropanın tərəqqisində mühüm rol oynayacağını, bu regiona yeni investorların gəlişinə təsir göstərəcəyini, Serbiyanın da inkişafına töhfə verəcəyini vurğulayıb.




Ukrayna Prezidenti Petro Poroşenko çıxışında Avropa üçün son dərəcə önəmli olan TANAP qaz xəttinin açılışının enerji qaynaqlarının şaxələndirilməsi istiqamətində atılan mühüm addım olduğunu bildirib. Türkiyənin və Azərbaycanın birgə səyləri sayəsində Cənub Qaz Dəhlizinin önəmli seqmentinin artıq tamamlandığını vurğulayan Petro Poroşenko bu layihənin uğurla icra olunmasında Azərbaycan və Türkiyə prezidentlərinin xidmətlərini qeyd edib.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edərək Cənub Qaz Dəhlizinin bel sütunu olan və "Enerjinin İpək yolu" adlandırılan Trans-Anadolu təbii qaz boru kəmərinin açılışı münasibətilə təbrik edib, bu layihənin Türkiyə ilə Azərbaycan arasındakı qarşılıqlı etimada əsaslanan münasibətlər sayəsində reallaşdığını, TANAP-ın çoxtərəfli əməkdaşlığın nümunəsi olduğunu söyləyib və Xəzər qazının ilk dəfə Avropaya çatacağını vurğulayıb.

Türkiyə Prezidenti TANAP-ın təkcə enerji təhlükəsizliyi baxımından deyil, Xəzər bölgəsindən Avropaya qədər marşrut üzərindəki bütün ölkələrin rifahına və məşğulluq probleminə də töhfə verəcəyini bildirib, Türkiyənin son 16 ildə təmin etdiyi siyasi və iqtisadi sabitliyin çox önəmli rolundan bəhs edib.

Sonra TANAP kəmərinə qazın verilməsi mərasimi olub, birgə foto çəkdirilib.

Bununla da Azərbaycanın və Türkiyənin birgə səyləri nəticəsində daha bir dünya əhəmiyyətli tarixi layihə həyata vəsiqə alıb. Ölkəmizin reallaşdırdığı "Cənub Qaz Dəhlizi" layihəsinin ən vacib seqmentlərindən olan TANAP qaz kəmərinin istifadəyə verilməsi ilə artıq regiona və tərəfdaş ölkələrin həyatına yeni bir nəfəs gəlir. Bu isə Azərbaycanın və Türkiyənin birgə formalaşdırdığı regional inkişaf, tərəqqi və özünəinam mühitinin qələbəsidir.

Qeyd olunmalıdır ki, TANAP layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından və Xəzərin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və Avropaya nəqlini nəzərdə tutur. TANAP Gürcüstandan və Türkiyənin 20 vilayətindən keçərək Yunanıstan sərhədinə qədər uzanır. Layihə ilə bağlı Azərbaycan ilə Türkiyə arasında Anlaşma Memorandumu 2011-ci il dekabrın 24-də, Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair Saziş isə 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. TANAP layihəsi təbii qazın "Şahdəniz", eyni zamanda, Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir. Uzunluğu 1850 kilometr olan TANAP boru kəmərinin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. İlkin mərhələdə layihənin illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcək.

Tədbir çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin Əskişəhərdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Ukrayna Prezidenti Petro Poroşenko və BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşləri olub. Görüşlərdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib. TANAP layihəsinin əhəmiyyəti vurğulanıb, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



# Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə hərbi parad

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında təntənəli hərbi parad keçirilib.**

Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva paradda olublar.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin respublikamızdakı səfirləri, hərbi attaşeləri, beynəlxalq təşkilatların əməkdaşları, yubiley tədbiri ilə əlaqədar ölkəmizə gələn nümayəndə heyətlərinin rəhbərləri, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri hərbi paradı izləyiblər.

Hərbi paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti iştirak edib.

Təntənəli mərasimdə 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olunub.

Paradda, həmçinin Türkiyə, Pakistan, Belarus, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran, İsrail, Qazaxıstan, Özbəkistan, Rusiya, Səudiyyə Ərəbistanı və Ukraynadan olan 100-dək nümayəndə iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi paradda nitq söyləyib.

Azərbaycan Ordusunun 100 illiyi münasibətilə xalqımızı ürəkdən təbrik edən dövlətimizin başçı-

sı Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş ən önəmli qərarlardan birinin Azərbaycan Ordusunun yaradılması ilə bağlı qərarın olduğunu söyləyib, müstəqilliyimizin bərpasından sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizin inkişaf və tərəqqi yolu ilə getdiyini, ordu quruculuğu sahəsində işlərin sürətlə aparıldığını bildirib, Azərbaycan ordusunun dünyanın güclü orduları sırasında olduğunu əminliklə vurğulayıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrindən bəhs edən Ali Baş Komandan ordumuzun döyüş qabiliyyətinin artdığını, Azərbaycanda çox yüksək vətənpərvərlik ruhunun olduğunu söyləyib, 2016-cı ildə aprel döyüşlərində və cari ilin mayında Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun Günnüt hərbi əməliyyatlarında qazanılmış zəfərləri vurğulayıb.

Sonra Silahlı Qüvvələrin şəxsi heyətinin və hərbi texnikanın təntənəli keçidi olub, quruda, dənizdə və havada müqəddəs Vətənin keşiyini çəkən Silahlı Qüvvələrin qoşun növlərinin hərbi qulluqçuları hərbi orkestrin mətin addımlarla tribunanın önündən keçiblər. Paradda ilk dəfə qardaş Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin heyəti də iştirak edib.



Eyni zamanda çoxtəyinatlı zirehli avtomobillər, o cümlədən tank əleyhinə idarə olunan raket kompleksləri, pilotsuz uçuş aparatları əleyhinə qurğular, çevik hərəkət maşınları, zirehli piyada daşıyan maşınlar, zirehli transportyorlar, mobil müşahidə sistemləri və digər hərbi məhsullar paradda nümayiş olunub.

Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin, qırıcıların, milli şahinlərimizin paytaxt səmasında nümunəvi uçuşları maraqla izlənilib.












Paradda hərbi aviasiya tarixində ilk dəfə Azərbaycan şahinləri "SU-25" hücum təyyarələri ilə yüksək pilotaj məharəti göstərib, paytaxt səmasında üçrəngli bayrağımızın möhtəşəm əksini yaradıblar.

Azərbaycan Ordusunun 100 illiyi ilə əlaqədar keçirilən möhtəşəm hərbi parad başa çatandan sonra qardaş Türkiyənin "Solo Türk" və "Türk Ulduzları" aviaqrupuna daxil olan 2 ədəd "F-16" və 8 ədəd "F-5" tipli təyyarə də Bakı buxtası üzərində nümunəvi uçuşlar keçirib.

Beləliklə, parad bir daha göstərib ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücü onun öz xalqına və dövlətinə sədaqətində, Vətən sevgisindədir. Millətimizin ləyaqət rəmzi, özünütəsdiq imkanı olan ordumuz xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir və bütün bu ali ideyaları yalnız bir milli dəyər birləşdirir - Müstəqillik!









# Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louhun Azərbaycan Respublikasına səfəri

## ◆ *Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louhun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Prezident İlham Əliyev Əlcəzairin ədliyyə naziri Tayeb Louhun Azərbaycanda çoxlu sayda məhsuldar görüşlər keçirməsindən məmnunluğunu ifadə edib, nazirlər səviyyəsində qarşılıqlı səfərləri ədliyyə sahəsində əməkdaşlığın uğurlu inkişafının göstəricisi kimi dəyərləndirib. Azərbaycanın Əlcəzair ilə ikitərəfli münasibətlərin genişləndirilməsində maraqlı olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, siyasi əlaqələr çox yaxşı səviyyədədir, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən BMT və İslam Əməkdaşlıq Təşkilatında uğurlu əməkdaşlıq həyata keçirir. Azərbaycanın İslam həmrəyliyi işinə verdiyi töhfəyə toxunan Prezident İlham Əliyev keçən il ölkəmizdə "İslam Həmrəyliyi İli"nin elan olunduğunu, Bakıda IV İslam Həmrəyliyi Oyunlarının keçirildiyini qeyd edib.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin növbəti mərhələsində iqtisadi əməkdaşlıq məsələlərinə daha çox diqqət yetirilməsinin və ticarət dövriyyəsinin artırılmasının vacibliyini bildirib. Prezident İlham Əliyev, eyni zamanda, qeyd edib ki, humanitar sahədə də əməkdaşlığın genişləndirilməsi, o cümlədən insanlar arasında əlaqələr, turistlərin qarşılıqlı səfərləri böyük önəm daşıyır. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bundan sonra da uğurla inkişaf ediləcəyinə əminliyi ifadə edib.

Ədliyyə naziri Tayeb Louh Əlcəzair Prezidenti Əbdüləziz Buteflikanın salamlarını və eyni zamanda, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə təbriklərini dövlətimizin

başçısına çatdırıb. O qeyd edib ki, Əlcəzair Prezidenti dövlətimizin başçısına fəaliyyətində yeni-yeni uğurlar və Azərbaycan xalqına Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə davamlı inkişaf və tərəqqi arzulayır. Tayeb Louh bildirib ki, Əlcəzair dövlətinin başçısı Azərbaycan ilə münasibətlərin inkişafına yüksək diqqət yetirir və bu istiqamətdə müvafiq tapşırıqlar verib. Nazir ölkələrimiz arasında tarixi əlaqələrin mövcud olduğunu və bu əlaqələrin getdikcə uğurla inkişaf etdiyini vurğulayıb.

Dövlətimizin başçısı Əlcəzair Prezidenti Əbdüləziz Buteflikanın salamlarına və təbriklərinə görə minnətdarlığını bildirib, onun da salamlarını Əlcəzair Prezidentinə çatdırmağı xahiş edib.

Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## ◆ *Azərbaycanın Baş naziri tərəfindən qəbul*

**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov iyunun 21-də Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louhun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Azərbaycan ilə Əlcəzair arasında yaxşı əlaqələrin mövcud olduğunu deyən Baş nazir Novruz Məmmədov bu səfərin münasibətlərimizin daha da genişləndirilməsi baxımından böyük əhəmiyyət daşıdığını qeyd edib.

Novruz Məmmədov yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıb və ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

Azərbaycanın Baş naziri iqtisadiyyatın bir sıra istiqamətlərində, o cümlədən energetika, turizm, sənaye və digər sahələrdə əlaqələrin daha da inkişafı üçün yaxşı imkanların olduğunu bildirib.

Hüquqi sahədə inkişaf edən münasibətlərimizdən danışan Baş nazir Azərbaycanın və Əlcəzairin Ədliyyə nazirlikləri arasında ötən il imzalanmış Anlaşma Memorandumunun qarşılıqlı fəaliyyətin genişləndirilməsinə yaxşı imkan yaratdığını söyləyib. Novruz Məmmədov Əlcəzair nümayəndə heyətinin bu səfəri çərçivəsində iyunun 21-də imzalanmış ekstradisiya haqqında dövlətlərarası müqavilənin ölkələrimiz arasında hüquqi bazanın möhkəmlənməsi baxımından önəmini qeyd edib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən Baş nazir Novruz Məmmədov deyib ki, beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birini dəstəkləməsi böyük önəm kəsb edir.

Əlcəzairin ədliyyə naziri Tayeb Louh Bakıya səfərindən məmnunluğunu ifadə edib, göstərilən qonaqpərvərliyə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib. O, Azərbaycanda uğurla keçirilən prezident seçkilərinə və dövlətimizin başçısı İlham Əliyevin seçkilərdə qazandığı inamlı qələbəyə görə təbriklərini çatdırıb.

Tayeb Louh Əlcəzair nümayəndə heyətinin Azərbaycana səfərinin və imzalanmış müqavilənin ölkələrimiz arasında əlaqələrin inkişafına təkan verəcəyinə əminliyini bildirib.

Görüşdə əlaqələrin inkişafı və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər Xiyabanını ziyarət





Azərbaycana səfəri zamanı Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louhun başçılıq etdiyi nümayəndə heyəti iyunun 21-də Fəxri Xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstəsi qoyulub.

Sonra nümayəndə heyəti Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, onların əziz xatirəsinə dərin ehtiramını bildirib.

## Ədliyyə Nazirliyində





*Azərbaycan və Əlcəzair ədliyyə nazirlərinin görüşü və ilk dövlətlərarası müqavilənin imzalanması mərasimi*

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan hərtərəfli islahatlar çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən mütərəqqi beynəlxalq təcrübəyə böyük əhəmiyyət verilir, bu məqsədlə bir çox xarici dövlətlərin Ədliyyə nazirlikləri ilə səmərəli ikitərəfli əlaqələr qurulub.**

Ötən il respublikamızın ədliyyə nazirinin Əlcəzair Xalq Demokratik Respublikasına səfəri zamanı Ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması iki ölkə arasında bağlanmış ilk sənəd olmaqla ikitərəfli münasibətlərin inkişafına təkan verib. Eyni zamanda, ekstradisiya haqqında müqavilə layihəsi hazırlanaraq razılaşdırılıb və Əlcəzair Ədliyyə Nazirliyi nümayəndə heyətinin cari ilin əvvəlində ölkəmizə səfəri zamanı paraflanıb.

Həmin sənədin imzalanması məqsədilə Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louh nümayəndə heyəti ilə iyunun 20-24-də

Azərbaycanda rəsmi səfərdə olub.

Səfər zamanı Ədliyyə Nazirliyində respublikamızın ədliyyə naziri Fikrət Məmmədovun və Əlcəzairin ədliyyə naziri Tayeb Louhun görüşü keçirilib.


*Əlcəzair ədliyyə nazirinin KİV-lərə müsahibəsi*

Azərbaycan və Əlcəzair arasında əlaqələrin inkişaf etdirilməsində hər iki ölkənin dövlət başçıları cənab İlham Əliyevin və cənab Abdelaziz Boutefilkanın siyasi iradəsini qeyd edən nazir F.Məmmədov "İslam Həmrəyliyi İli" elan


*"ASAN xidmət" mərkəzi ilə tanışlıq*

olunmuş 2017-ci ildə Əlcəzairə səfərini və keçirilmiş rəsmi görüşləri məmnunluqla xatırladıb, nazirliklərarası Anlaşma Memorandumunun qarşılıqlı fəaliyyətin genişləndirilməsində yeni səhifə açdığını söyləyib, hazırkı səfərin ölkələrimiz arasında əlaqələrin dərinləşməsinə əlavə təkan olacağına əminliyini ifadə edib.

Nazir respublikamızın müstəqillik illərində keçdiyi inkişaf yolundan bəhs edərək ümummilli lider Heydər Əliyevin müstəsna xidmətlərini vurğulayıb, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan nailiyyətlər, ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən tədbirlər barədə məlumat verib.

Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu ifadə edən Tayeb Louh ölkələrimiz arasındakı tarixi əlaqələrin genişləndirilməsinə dövlət başçılarının xüsusi önəm verdiyini, hər iki ölkənin Ədliyyə nazirliklərinin bu istiqamətdə səylə çalışdığını vurğulayıb, imzalanmış Anlaşma Memorandumunun hüquqi sahədə əməkdaşlığın dərinləşməsinə xidmət etdiyini bildirib.

Qonaq həmçinin, Azərbaycanda ədliyyə sisteminin müasirləşdirilməsi, innovasiyaların tətbiqi sahəsində əldə olunan nailiyyətləri təqdir edib, səfər zamanı Azərbaycan brendi olan ASAN mərkəzləri ilə tanışlıqdan heyranlığını ifadə edib, ASAN-ın göstərdiyi xidmətləri maraqla qarşılayaraq bu sahədə təcrübəmizlə daha yaxından tanış olmaq barədə istəklərini bildirib.

Əlcəzairli nazir qarşılıqlı fəaliyyətin və təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edib, səmimi qonaqpərvərliyə və səfərin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını bildirib.

Söhbət zamanı həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin acı nəticələri, Ermənistanın torpaqlarımıza qarşı davam edən hərbi təcavüzü və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktı qonaqların diqqətinə çatdırılıb.



*Əlcəzair ədliyyə nazirinin azərbaycanlı hüquqşünaslar qarşısında mühazirəsi*

Sonra Azərbaycan və Əlcəzair arasında ekstradisiya haqqında müqavilə imzalanıb. Mərasimdə bəyanatlarla çıxış edən nazirlər qeyd ediblər ki, imzalanan bu mühüm sənəd ilk dövlətlərarası müqavilə olmaqla cinayət əməli törətmiş şəxslərin təslim edilməsi sahəsində qarşılıqlı fəaliyyətin həyata keçirilməsinə, ölkələrimizin ədliyyə və məhkəmə orqanları arasında əlaqələrin möhkəmlənməsinə xidmət edəcək, cinayətkarlığa qarşı mübarizəyə töhfə verəcəkdir.

Qonaqlar nazirlikdə bu il 100 illiyi qeyd olunan Azərbaycan Ədliyyəsinin tarixi muzeyi ilə tanış olub, nümayəndə heyətinə müasir ədliyyə fəaliyyətinə və məhkəmə-hüquq islahatlarına dair, həmçinin iki ölkə arasında hüquqi əlaqələri, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumatları əks etdirən xüsusi jurnallar və əyani vəsaitlər təqdim edilib.

Tədbirin yekununda KİV nümayəndələrinə müsahibə verilib.

Səfər çərçivəsində Əlcəzair ədliyyə naziri hakimlər, hakimliyə namizədlər, ədliyyə işçiləri, vəkillər və prokurorluq əməkdaşları üçün mühazirə oxuyub, eləcə də nümayəndə heyəti müasir məhkəmə infrastrukturu və elektron məhkəmə sisteminin tətbiqi, habelə paytaxtın mədəni və tarixi abidələri ilə tanış olub.

## ◆ *Milli Məclisdə*



**İyunun 21-də Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Əlcəzairin ədliyyə naziri Tayeb Louh ilə görüşüb.**

Ziyafət Əsgərov Azərbaycanla Əlcəzairin tarixi dostluq münasibətlərinin ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlığı üçün yaxşı imkanlar yaratdığını deyib. Bildirib ki, Azərbaycan Əlcəzairlə münasibətlərin dərinləşməsində maraqlıdır. Ölkələrimizin beynəlxalq qurumlarda qarşılıqlı əməkdaşlığı da yüksək səviyyədədir. Əlcəzair Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. Ölkəmizin dünyaya, o cümlədən İslam aləminə verdiyi töhfələrdən danışan Milli Məclis sədrinin birinci müavini onu da diqqətə çatdırıb ki, işğalçı Ermənistan zəbt etdiyi Azərbaycan ərazilərində dini, tarixi abidələrimizi dağıdıb, talan edib.

Əlcəzairin ədliyyə naziri Tayeb Louh Bakıya səfərinin əhəmiyyətindən danışaraq bildirib ki, münasibətlərin dərinləşməsi hər iki ölkənin marağındadır. Dövlət başçıları səviyyəsində bu məsələyə yüksək diqqət ayrılır.

Qonaq qeyd edib ki, son zamanlar ölkələrimiz arasında məhkəmə-hüquq sahəsində imzalanan sənədlər bu əməkdaşlığın faydalı olacağından xəbər verir. O, parlamentlərarası münasibətlərin inkişafı üçün parlamentlərarası dostluq qruplarının yaradılmasının önəmini vurğulayıb.

Söhbət zamanı mövcud münaqişələrin həlli məsələsindən danışan nazir diqqətə çatdırıb ki, ölkəsi bu cür problemlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinin tərəfdarıdır və bu mövqe dəyişməz olaraq qalır.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Konstitusiya Məhkəməsində



**Ölkəmizdə səfərdə olan Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louhun başçılıq etdiyi nümayəndə heyəti ilə iyunun 22-də Konstitusiya Məhkəməsində görüş keçirilib.**

Əlcəzair nümayəndə heyətinin Azərbaycana səfərindən məmnunluğunu bildirən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev səfər çərçivəsində keçirilən səmərəli görüşlərin ölkələrimiz arasında münasibətlərin inkişafı baxımından əhəmiyyətini vurğulayıb, Konstitusiya Məhkəməsinin yaradılması və fəaliyyətindən geniş bəhs edib, gələn ay 20 illiyinin qeyd olunajağını vurğulayıb, məhkəmə-hüquq sahəsində Avropa strukturları ilə səmərəli əməkdaşlığı qeyd edib.

Nümayəndə heyətinin sədri Tayeb Louh Azərbaycan ilə Əlcəzair arasında müxtəlif sahələrdə təcrübə mübadiləsinin vacibliyini qeyd edərək, ölkəsinin Konstitusiya Şurası ilə Azərbaycanın Konstitusiya Məhkəməsi arasında əməkdaşlığın inkişafında maraqlı olduqlarını diqqətə çatdırıb. Əlcəzairin məhkəmə-hüquq sistemi və Konstitusiya Şurasının fəaliyyəti barədə ətraflı məlumat verən qonaq ölkələrimizin Konstitusiya sistemlərində oxşarlığın olduğunu diqqətə çatdırıb.

Hüquqi dövlətin inkişafında Konstitusiya Şurasının vacib missiyasını xüsusi vurğulayan Tayeb Louh bildirib ki, Əlcəzairin Konstitusiya Şurası normativ hüquqi aktlarla yanaşı, qüvvəyə minməmiş beynəlxalq müqavilələrin də ölkənin Əsas Qanuna uyğunluğunu yoxlayır. Nümayəndə heyətinin rəhbəri 2016-cı ildə Əlcəzair Konstitusiyasına edilən dəyişikliklərdən sonra Konstitusiya Şurasına müraciət etmək hüququnun genişləndirildiyini vurğulayıb.

Yüksək qonaqpərvərliyə və ətraflı məlumata görə Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevə minnətdarlığını ifadə edən Əlcəzairin ədliyyə naziri Tayeb Louh Azərbaycanın sürətli inkişafından və ölkəmizin gözəlliyindən məmnunluğunu bildirib.

Sonda qonaqlar Konstitusiya Məhkəməsinin Plenum zalı ilə tanış olublar.

## Ali Məhkəmədə

**İyunun 22-də Azərbaycanda səfərdə olan Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louhun başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşüb.**

Görüşdə Ali Məhkəmənin sədri Azərbaycanın məhkəmə sistemi, Ali Məhkəmənin strukturu və fəaliyyəti barədə qonaqlara məlumat verib.

Ramiz Rzayev son illər respublikamızda məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən, eləcə də ədalət mühakiməsini həyata keçirmək, qanunun aliliyini təmin etmək məqsədi ilə Ali Məhkəmənin qarşısında duran vəzifələrdən danışıb.

Azərbaycanın Əlcəzair Xalq Demokratik Respublikası ilə işgüzar əlaqələrinin yaranmasından razılıq ifadə edən Ali Məhkəmənin sədri əminliyini bildirib ki, iki ölkənin Ədliyyə nazirlikləri arasında mövcud olan Anlaşma Memorandumu, hazırkı səfər



çərçivəsində imzalanan ekstradisiya sahəsində müvafiq müqavilə ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın inkişafına xidmət edir.

Əlcəzairin məhkəmə sistemi haqqında ətraflı danışan ədliyyə naziri Tayeb Louh iki ölkə arasında qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını bildirib. Qeyd edib ki, bu əməkdaşlıq bundan sonra da davam etdiriləcək.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Əlcəzairli qonaqlar Ali Məhkəmənin inzibati binası ilə tanış olublar. Məhkəmə tarixi muzeyinə baxan Əlcəzairin ədliyyə naziri xatirə kitabına ürək sözlərini yazıb.

## ◆ *Baş Prokurorluqda*



**İyunun 21-də Baş prokuror Zakir Qaralov Əlcəzairin ədliyyə naziri Tayeb Louh ilə görüşüb.**

Görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı qeyd olunaraq bu əlaqələrin möhkəmlənməsində dövlət başçıları İlham Əliyevin və Əbdüləziz Buteflikanın xüsusi rolu vurğulanıb.

Baş prokuror ölkəmizin İslam və ərəb dünyası ilə əlaqələrə xüsusi əhəmiyyət verdiyini qeyd edərək, dövlətimizin başçısı tərəfindən 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması çərçivəsində dost Əlcəzair ilə ikitərəfli münasibətlərin inkişafı məqsədilə iki ölkənin Ədliyyə nazirlikləri tərəfindən imzalanan əməkdaşlıq haqqında Anlaşma Memorandumunun, həmçinin cari səfər çərçivəsində imzalanan ekstradisiya haqqında müqavilənin əlaqələrimizin inkişafında yeni təkan olduğunu

vurğulayıb.

Söhbət zamanı ölkəmizdə ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş və Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi üzrə görülən işlərə və qazanılan nailiyyətlərə böyük maraq göstərilərək, təcrübə mübadiləsinin aparılmasının hər iki tərəf üçün faydası qeyd olunub.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən nazir Tayeb Louh respublikamızın hərtərəfli tərəqqisini qeyd edib, qarşılıqlı etimada əsaslanan Əlcəzair-Azərbaycan əlaqələrinin bundan sonra da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini söyləyib.

Nazir Azərbaycanda gedən proseslərdən məlumatlı olduğunu bildirərək, ölkəmizin sürətli inkişafında, əmin-amanlığın və sabitliyin təmin olunmasında Prezident İlham Əliyevin müstəsna rolunu və xidmətlərini vurğulayıb. O, respublikamızda aparılan məhkəmə-hüquq islahatlarına böyük maraq göstərdiyini və bu islahatları təqdir etdiyini, öz ölkəsində də bu sahədə köklü islahatların aparıldığını bildirib. Nazir Tayeb Louh hüquqi sahədə təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edərək bunun üçün qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsində maraqlı olduğunu söyləyib.

Görüşdə əməkdaşlığın perspektivləri müzakirə olunub, korrupsiyaya qarşı mübarizə və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

# Milli Qurtuluş günü ədliyyə orqanlarında qeyd olunub

**1993-cü il iyun ayının 15-də xalqımızın azadlığının, dövlətçiliyimizin müqəddəratının həll edildiyi bir vaxtda ümummilli lider Heydər Əliyev ölkə rəhbərliyinə qayıdaraq çətin və şərəfli xilaskarlıq missiyası nəticəsində Azərbaycanı müstəqilliyini itirmək təhlükəsindən xilas edərək onu gələcəyə inamla irəliləyən güclü və sabit bir dövlətə çevirib. Dahi öndərin ölkə rəhbərliyinə qayıdışının - Milli Qurtuluş Gününün 25 illiyi ölkəmizdə geniş qeyd olunur, ümummilli liderin Azərbaycanın dərin ictimai-siyasi və iqtisadi böhrandan çıxarılmasında, dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsində misilsiz xidmətləri qədirbilən xalqımız tərəfindən böyük ehtiram və minnətdarlıq hissi ilə xatırlanır.**



Milli Qurtuluş Günü Ədliyyə Nazirliyində və onun bütün struktur qurumlarında geniş qeyd olunub, bayram münasibətilə nazirliyin rəhbərliyi və kollektivi ümummilli lider Heydər Əliyevin nazirlikdəki büstü önünə gül dəstələri qoyub, əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbirdə ədliyyə naziri Fikrət Məmmədov əbədiyaşar lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı fədakar xidmətlərindən, Ümummilli Liderin Azərbaycanda müasir ədliyyə sisteminin yaradılmasına və fəaliyyətinə qayğısından bəhs edib, Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın bütün sahələrində qazanılmış böyük nailiyyətləri vurğulayıb.

Həmçinin ədliyyə orqanlarına qulluğa qəbul olunmuş bir qrup gənclərlə görüş keçirilib.

Gənclər əvvəlcə Heydər Əliyev Sarayının qarşısındakı parka gələrək Ulu Öndərin xatirəsini ehtiramla anıb, abidəsi önünə əklil qoyublar.




Görüşdə nazir müavini Toğrul Musayev ulu öndər Heydər Əliyevin zəngin həyat yolundan, titanik fəaliyyətindən, ölkəmizdə qanunun aliliyi, insan hüquqlarının təminatı, dövlət quruculuğu istiqamətində misilsiz xidmətlərindən danışıb, dahi öndərin hüquq-mühafizə orqanlarında kadrların seçilib yerləşdirilməsi, onların Azərbaycan dövlətinə sədaqətlə xidmət etməsi, sağlam mənəviyyata, yüksək mənəvi keyfiyyətlərə malik olması ilə bağlı tələblərini xüsusilə diqqətə çatdırıb, ölkə başçısının rəhbərliyi ilə aparılan dövlət gənclər siyasətinə uyğun olaraq həyata keçirilən tədbirləri qeyd edib.

Çıxış edən gənclər dahi öndər Heydər Əliyevin memarı və qurucusu olduğu müstəqil Azərbaycanımızın hərtərəfli inkişafı naminə sədaqətlə xidmət göstərəcəklərini vurğulayıb, onlara bu əziz bayram ərəfəsində göstərilən yüksək etimadı doğruldacaqlarına, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına söz veriblər.

Bayramla əlaqədar nazirlikdə Heydər Əliyev Muzeyində əbədiyaşar liderimizin həyatı və fəaliyyəti, zəngin dövlətçilik irsi ilə bağlı yeni foto və ekspozisiyalarla tanış olunub, kinozalda ümummilli liderə həsr olunmuş filmlər, eləcə də foto-slaydlar nümayiş etdirilib. Əməkdaşlar, həmçinin Nizami Kino Mərkəzində Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş "Qılınc və Qalxan" sənədli filminə tamaşa ediblər.



# Dünya Bankı ilə ədliyyə sahəsində birgə layihələr uğurla həyata keçirilir




**Son illər ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmləndirilməsinə xidmət edən islahatlar aparılır, ədalət mühakiməsinə çatımlılıq, vətəndaşların məhkəmələrə müraciət imkanları asanlaşdırılır, məhkəmə infrastrukturunun yüksək statusuna uyğun müasirləşdirilməsi və "elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə ardıcıl tədbirlər görülür.**

Bu sahədə islahatlara nüfuzlu beynəlxalq qurumlar tərəfindən də böyük maraq göstərilir, Dünya Bankı ölkəmizdə məhkəmə-hüquq islahatlarına dəstək göstərərək on ildən artıqdır ki, ədliyyə sisteminin müasirləşdirilməsinə dair birgə layihələr uğurla həyata keçirilir. Bu layihələr çərçivəsində, habelə dövlət büdcəsi hesabına paytaxtda və bölgələrdə 14 məhkəmə üçün yeni, müasir binalar və komplekslər tikilərək istifadəyə verilib, hazırda isə 7 məhkəmə üçün belə binaların inşası aparılır. Bir çox məhkəmə bina və komplekslərin açılışlarında dövlətimizin başçısı şəxsən iştirak edib, müvafiq tövsiyə və tapşırıqlarını verib.

İyunun 14-də ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Dünya Bankının İcraya dəstək missiyasının nümayəndələri ilə görüşüb.

Milli Qurtuluş Günü ərəfəsinə təsadüf edən görüşdə nazir xalqımızın xilaskarı ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi dövlət inkişafı kursunu uğurla həyata keçirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sürətli inkişafını, yenicə istifadəyə verilmiş TANAP Trans-Anadolu qaz kəmərinin qlobal əhəmiyyətini vurğulayıb.

Nazir dövlət başçısının siyasi iradəsi ilə məhkəmə sisteminin təkmilləşdirilməsi üzrə görülən işlərdən danışıb, Dünya Bankı ilə ədliyyə sahəsində uzun müddətdir səmərəli əməkdaşlıq edildiyini, Bankın məhkəmə-hüquq islahatlarına dəstəyini qeyd edərək ədliyyə və məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə birgə həyata keçirilən layihələrin nəticələrini vurğulayıb. Bildirilib ki, aparılan islahatlara beynəlxalq maraq artaraq artıq bir çox dövlətlərin nümayəndələri müsbət təcrübəmizdən bəhrələnmək üçün ölkəmizə səfərlər edir.

Dünya Bankının ölkəmizlə əməkdaşlığını yüksək qiymətləndirən Bankın Avropa və Mərkəzi Asiya Regionunun Dövlət İdarəçiliyi üzrə Meneceri

Daniyel Boys bu layihənin Bankın 25 il ərzində müxtəlif sahələrdə həyata keçirdiyi 50-dən çox layihələr içərisində ən uğurlularından olduğunu qeyd edib, Azərbaycanın məhkəmə sistemində nailiyyətlərinin artıq beynəlxalq aləmdə tanındığını və müxtəlif beynəlxalq mükafatlara layiq bilindiyini söyləyib.

Nümayəndə heyəti səfər zamanı layihə çərçivəsində inşa olunmuş müasir Şəki Məhkəmə Kompleksi ilə tanışlıqdan məmnunluğunu ifadə edərək bu sahədə həyata keçirilən tədbirlərin, o cümlədən ən qabaqcıl İKT-lərin, xüsusilə elektron məhkəmə informasiya sisteminin tətbiqinin şahidi olduqlarını bildirib. Həmçinin birgə layihənin icrası barədə məlumat verərək, onun davam etdirilməsinin perspektivləri barədə faydalı fikir mübadiləsi aparıblar.

Qonaqlar nazirlikdə bu il 100 illiyi qeyd olunan Azərbaycan ədliyyəsinin tarixi muzeyi ilə tanış olublar.

# Ədliyyə naziri Siyəzəndə vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq iyunun 6-da ədliyyə naziri Fikrət Məmmədov Siyəzən rayonu Heydər Əliyev Mərkəzində Siyəzən, Şabran və Xızı rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

Müşavirədə ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı dövlət başçısının tapşırıqlarından irəli gələn vəzifələr diqqətə çatdırılıb, ədliyyə və məhkəmə sisteminin müasirləşməsi, qabaqcıl texnologiyaların tətbiqi, məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması, probasiya xidmətinin fəaliyyətinin təşkili ilə bağlı tapşırıq və tövsiyələr verilib, şəffaflığın və vətəndaş məmnunluğunun təmin olunması, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi qeyd olunub.

# Ədliyyə Nazirliyində görüş




**Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) Yaxın Şərqdə qərar vermə prosesində qadınların gücləndirilməsi ilə bağlı həyata keçirdiyi layihə çərçivəsində yerli özünüidarəetmə fəaliyyəti və bu sahədə qadınların iştirakına dair Azərbaycanın təcrübəsi ilə tanış olmaq məqsədilə ölkəmizdə səfərdə olan Fələstin Dövlətinin Yerli Hökumət nazirinin müavini Məhəmməd Əl-Cabarinin başçılıq etdiyi nümayəndə heyəti ilə iyunun 29-da ədliyyə nazirinin müavini Vilayət Zahirovun görüşü olub.**

Görüşdə Azərbaycan və Fələstin arasında münasibətlərin səviyyəsindən məmnunluq ifadə olunub, bu əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu bildirilib, hər iki ölkədə yerli hökumətin inkişafı, bələdiyyə institutlarının fəaliyyəti, qadınların bələdiyyə idarəçiliyində iştirakı barədə faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Nazir müavini V.Zahirov ölkəmizdə bələdiyyə institutunun formalaşdırılması və inkişafı istiqamətində mühüm addımların atıldığını, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə yerli özünüidarəetmə sahəsində aparılan qanunvericilik və institusional islahatlar nəticəsində bələdiyyələrin fəaliyyətinin təkmilləşdiyini, bələdiyyə assosiasiyalarının yaradıldığını, bələdiyyələrdə qadınların təmsilçiliyini, onların yerli əhəmiyyətli məsələlərin həllində iştirakını vurğulayıb, bu sahədə GİZ ilə əməkdaşlığı qeyd edib.

Həmçinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsində, onlara metodiki yardımın göstərilməsində, bələdiyyə nümayəndələrinin maarifləndirilməsində Ədliyyə Nazirliyinin fəaliyyəti barədə qonaqlara geniş məlumat verilib.

Azərbaycana ilk dəfə səfər etmələrindən məmnunluğunu ifadə edən qonaqlar ölkəmizin iqtisadi, mədəni və infrastruktur baxımından inkişafının şahidi olduqlarını söyləyib, yerli özünüidarə sahəsində Azərbaycanın təcrübəsinin öyrənilməsində maraqlı olduqlarını qeyd ediblər. Məhəmməd Əl-Cabarin Fələstində bələdiyyə institutunun fəaliyyətindən, qadınların bu sahədə aktiv iştirakının təmin olunmasından bəhs edib, ölkələrimiz arasında əlaqələrin genişləndirilməsinə hazır olduğunu vurğulayıb.

Söhbət zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Tədbirdə Fələstin Dövlətinin ölkəmizdəki səfiri Nasir Əbdülkərim Əbdürrəhman iştirak edib.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

# Notariat fəaliyyəti dövlət başçısının tapşırıqlarına uyğun müasirləşir



**Son illər ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın sürətli sosial-iqtisadi yüksəlişi vətəndaşlarımıza mülki hüquq münasibətlərindən irəli gələn məsələlərin həlli üçün geniş imkanlar yaradıb. Bu sahədə əhaliyə keyfiyyətli hüquqi xidmətlərin göstərilməsində notariat orqanları mühüm rol oynayır.**

İki yüz ilə yaxın tarixi olan Azərbaycan notariatının fəaliyyətinə bu il yaranmasının 100 illiyi geniş qeyd olunan Azərbaycan Xalq Cümhuriyyəti dövründə xüsusilə önəm verilib, Ədliyyə Nazirliyi tərəfindən Bakı və Gəncə dairə məhkəmələrinin böyük notariusu kontorlarının və tabeliyindəki özəl notariusların fəaliyyəti yaxşılaşdırılıb, onların sayının artırılması ilə bağlı qərarlar qəbul edilib.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyev tərəfindən mütərəqqi hüquqi islahatlar aparılmaqla notariat sistemi yeni mərhələyə qədəm qoyub, onun fəaliyyətini tənzimləyən "Notariat haqqında" Qanun qəbul olunub. Dövlət başçısı cənab İlham Əliyevin ədliyyə fəaliyyətinin müasirləşdirilməsi, qabaqcıl texnologiyaların tətbiqi, insanlara layiqli xidmət göstərilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq aparılan islahatlar çərçivəsində notariat təsisatının təkmilləşdirilməsi, vətəndaşların ədliyyə orqanlarına müraciət imkanlarının asanlaşdırılması, onlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi üzrə ardıcıl işlər həyata keçirilir.

Görülən tədbirlər nəticəsində ölkəmizdə beynəlxalq təcrübəyə uyğun xüsusi notariat institutu yaradılaraq geniş tətbiq olunur və onlar bu gün respublika üzrə bütün notariat korpusunun 83%-ni təşkil etməklə notariat hərəkətlərinin rəsmiləşdirilməsinə öz töhfələrini verirlər.

Eyni zamanda, "e-hökumət" prinsiplərinə uyğun olaraq əhaliyə geniş elektron xidmətlər göstərilir, nazirliyin "e-xidmətlər" bölməsi vasitəsilə vətəndaşlara notariat hərəkətlərinin aparılması qaydalarına, tələb olunan sənədlərə və rüsumların məbləğlərinə dair məlumatlarla tanış olmaq, müvafiq çıxarışlar əldə etmək, banka getmədən bütün ödənişləri kart vasitəsilə nağdsız həyata

keçirmək imkanı yaradılıb. Belə xidmətlərdən yararlanmaq üçün notariat kontorlarında universal elektron xidmət köşkləri də tətbiq olunur. Təkcə cari ilin ötən dövründə nazirliyin elektron xidmətlərindən, o cümlədən notariat fəaliyyəti ilə bağlı 2 milyondan çox insan faydalanıb.

Müasir texnologiyalardan istifadə etməklə, həmçinin "Elektron notariat" informasiya sistemi qurularaq, onun əsasnaməsi qəbul edilib. Beynəlxalq təcrübədə yalnız bir neçə inkişaf etmiş dövlətlərdə rast gəlinən belə sistem vasitəsilə notariat kontorları vahid şəbəkədə birləşdirilməklə notariat hərəkətlərinin rəsmiləşdirilməsi xeyli sadələşdirilib, ölkə vətəndaşları barədə məlumatlar rəqəmsallaşdırılmaqla və sistemləşdirilməklə notariuslar istənilən avtomobil, şəxsiyyət vəsiqəsinin nömrəsi, ad, soyad və doğum tarixi əsasında şəxsin ailə vəziyyəti, daşınar və daşınmaz əmlak üzrə bağladığı əqdlər barədə tam məlumat əldə etmək imkanına malikdirlər. Bu sistem fiziki və hüquqi şəxslərə daha çevik və keyfiyyətli hüquqi xidmətlərin göstərilməsinə, dövlət qurumları tərəfindən tələb edilən sənəd və arayışların sayının azaldılmasına və bununla da həmin qurumlara müraciət edilməsi zərurətinin aradan qaldırılmasına xidmət edir. Bu günədək həmin sistemdə 17 milyondan artıq aparılmış notariat hərəkəti barədə məlumat toplanıb.

Bütün bunlar ölkəmizin notariat sahəsindəki nailiyyətlərinə, həmçinin beynəlxalq marağı artırır və bir çox dövlətlər Azərbaycanın bu sahədə müsbət təcrübəsindən bəhrələnirlər. Bu yaxınlarda Rusiya Federasiyasının notariuslardan ibarət mötəbər nümayəndə heyəti ölkəmizə səfər edərək notariat sahəsindəki islahatlar və yeniliklərlə tanış olub, Azərbaycanın nailiyyətlərini nümunəvi qiymətləndirib, o cümlədən elektron notariat sistemini unikallığı ilə fərqləndirib. Səfər zamanı Rusiya nümayəndə heyətinin bir qrup rəhbər üzvlərinin ədliyyə naziri Fikrət Məmmədov ilə görüşü keçirilərək ölkələrimizin hüquqi sahədə əməkdaşlığının inkişaf perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılıb.

Həyata keçirilən tədbirlər çərçivəsində, həmçinin notariuslar korpusunun şəffaf prosedurlarla formalaşdırılması üzrə ardıcıl tədbirlər görülür, son illər aparılmış seçimlər əsasında hazırlıqlı, müasir texnologiyalara bələd şəxslərə notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq üçün şəhadətnamələr verilərək, onlar dövlət və ya xüsusi notarius vəzifəsində, o cümlədən Azərbaycan brendi olan "ASAN xidmət" çərçivəsində uğurla fəaliyyət göstərirlər.

Təsadüfi deyil ki, ictimai xidmətlərin müasir modeli olan ASAN mərkəzlərində 200 şəxsin çalışdığı notariat orqanları tərəfindən 2018-ci ilədək üç milyon yarım əməliyyat aparılmaqla vətəndaş məmnunluğuna nail olunub, bu günədək mərkəzlərdə verilən sənədlərin 41%-i məhz notariat orqanlarının payına düşür və bu göstərici ilbəil artır.

Notarius korpusunun komplektləşdirilməsi, bu zaman regionların sosial-iqtisadi tərəqqisinə uyğun olaraq hüquq təsisatlarının inkişafı, yerli hüquqşünasların işlə təminatı Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır, bu məqsədlə mütəmadi müsabiqələr keçirilir. Bir sıra rayonlarda vakant notarius vəzifələri üzrə elan olunmuş növbəti müsabiqə bu günlərdə başa çatıb. Aşkarlıq şəraitində, müasir texnologiyalar tətbiq olunmaqla, həmçinin vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə keçirilmiş müsabiqədən, o cümlədən Ədliyyə Akademiyasında icbari təlimdən uğur qazanmış namizədlərin notariat fəaliyyəti ilə məşğul olmaları üçün şəhadətnamələrin verilməsi qərara alınıb. Eyni zamanda, fəaliyyəti qiymətləndirilməklə bəzi notariusların şəhadətnamələrinin müddəti uzadılıb.

Yeni təyinatlarla əlaqədar Ədliyyə Nazirliyində notariuslarla nazir müavini Toğrul Musayevin görüşü keçirilib.

Görüşdə dövlət başçısının andiçmə mərasimində proqram xarakterli nitqindən irəli gələn vəzifələr və verdiyi tapşırıqlar diqqətə çatdırılaraq işin müasir tələblər səviyyəsində qurulması, texnoloji yeniliklərin daim mənimsənilməsi, insanlara keyfiyyətli hüquqi xidmətin göstərilməsi vurğulanıb.

Ötən dövrdə bir sıra notariuslara işindəki qüsurlara görə xəbərdarlıq edildiyi, fəaliyyətində yol verdiyi ciddi nöqsanlara, habelə müsahibələrdə müvafiq bilik nümayiş etdirə bilmədiklərinə görə 21 nəfərin fəaliyyətinə xitam verildiyi qeyd olunaraq yeni notariuslara xidməti vəzifələrini layiqincə yerinə yetirmələri, etik davranış qaydalarına dönmədən əməl olunmaları barədə tövsiyə və tapşırıqlar verilib, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına əminlik ifadə olunub.

Sonda notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olmaq üçün şəhadətnamələr təqdim edilib.

Notariuslar nazirlikdə Heydər Əliyev muzeyi və Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

# Ombudsmanların XV Bakı Beynəlxalq Konfransı



**İyunun 20-21-də "Hüquq bərabərliyinin təmin olunmasında və təşviqində milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların XV Bakı Beynəlxalq Konfransı keçirilib.**

18 iyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 və Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsinin 70 illiyinə həsr edilən konfransda dövlət və hökumət rəsmiləri, xarici ölkələrin ombudsmanları, insan hüquqları sahəsində beynəlxalq ekspertlər, Milli Məclisin deputatları, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, QHT-lərin və KİV-lərin təmsilçiləri iştirak ediblər.

İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) Elmira Süleymanova konfransın açılışında çıxış edərək ölkəmizin hərtərəfli inkişafı barədə məlumat verib, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti, gördüyü mühüm işlər haqqında bəhs edib. Müstəqilliyimizin bərpasından sonra 1993-cü il iyunun 15-də xalqımızın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev tərəfindən bütün sahələrdə, o cümlədən insan hüquq və azadlıqlarının təmin olunması üzrə mühüm addımların atıldığını vurğulayıb, Azərbaycanın dünya arenasındakı mövqeyindən söz açaraq əldə etdiyi nailiyyətlərdən danışıb.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Milli Məclisin sədr müavini, insan hüquqları komitəsinin sədri Bahar Muradova, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi və İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai insan hüquqlarının təmin olunmasında Ombudsman təsisatının mühüm rolunu qeyd ediblər.

Açılışdan sonra konfrans işini plenar iclasla davam etdirib. İclasda Ombudsman Elmira Süleymanova "Azərbaycanda hüquq bərabərliyi: qanunvericilik və icra mexanizmləri", Türkiyənin baş ombudsmanı Şərəf Malkoç "Qaçqınların iqtisadi və sosial inteqrasiyası və ombudsman", gənclər və idman naziri "Dövlət gənclər siyasətinin prioritet is-

tiqamətləri", Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova "Gender bərabərliyinin təmin olunmasında Azərbaycan təcrübəsi", Naxçıvan Muxtar Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Ülkər Bayramova "Naxçıvanda əhalinin müxtəlif sosial qruplarının hüquq bərabərliyi" mövzularında çıxışlar edib.

Həmçinin Əfqanıstan İslam Respublikasının ombudsmanı Ahmaz Zai Langarinin "Münaqişə vəziyyətində ombudsmanın rolu", Bolqarıstan Respublikasının Ayrı-Seçkiliklə Mübarizə üzrə Komissiyasının sədri Ana Dyumaliyevanın "Hüquq bərabərliyinin təmin və təşviqində Ayrı-Seçkiliklə Mübarizə üzrə Komissiyanın çətinlikləri" mövzusunda məruzələri dinlənilib.

Plenar iclasdan sonra konfrans işini sessiyalarla davam etdirib.

"Əhali qruplarının hüquqlarının müdafiəsi: bərabər hüquqlar üçün bərabər təminatlar" adlı birinci sessiyada ədliyyə nazirinin müavini Məhərrəm Əliyev "Hüquq bərabərliyi prinsipinin həyata keçirilməsində ədliyyə təsisatlarının rolu" mövzusunda çıxış edib.

Bərabərliyin insan hüquqlarının fundamental prinsiplərindən biri olduğunu vurğulayan nazir müavini bildirib ki, Konstitusiyada hamının qanun və məhkəmə qarşısında bərabər olması, kişi və qadınların hüquq bərabərliyi, eləcə də bərabərlik hüququ ilə qarşılıqlı surətdə bağlı olan ayrı-seçkiliyə yol verilməməsi prinsipi aydın şəkildə qeyd olunmuşdur.

Nazir müavini, həmçinin insan hüquqları sahəsində qəbul olunmuş beynəlxalq sənədlərdən bəhs edib, hüquq bərabərliyi prinsipinin həyata keçirilməsində ədliyyə orqanlarının rolu barədə söhbət açaraq son illər ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan islahatlar zamanı məhkəmələrə müraciət imkanlarının asanlaşdırılmasına, vətəndaşlara daha geniş və bərabər təminatların yaradılmasına xüsusilə diqqət yetirildiyini, yeni məhkəmələrin yaradıldığını, infrastrukturun müasirləşdirilməsini, məhkəmə fəaliyyətində ən son texnologiyaların, xüsusilə "Elektron məhkəmə" informasiya sisteminin tətbiqini qeyd edib.

Həmçinin penitensiar sistemin islahatı, həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi, saxlanma şəraitinin müasirləşdirilməsi, ictimai iştirakçılığın geniş tətbiqi, bu sahədə Ombudsman təsisatının Milli Preventiv mexanizmi ilə qarşılıqlı fəaliyyətin səmərəsi qeyd olunub, dövlət başçısının insanların azadlıq hüququnun qorunmasına xidmət edən cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə görülmüş işlər barədə məlumat verilib.

M.Əliyev əhalinin aztəminatlı təbəqələrinə pulsuz hüquqi yardım göstərən Ədliyyə Akademiyasında Hüquq Klinikasının səmərəli fəaliyyətindən, insan hüquqları sahəsində tədris və maarifləndirmə tədbirlərindən, ədliyyə orqanları tərəfindən vətəndaşlara elektron xidmətlərin göstərilməsindən bəhs edib.

Nazir müavini çıxışında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunaraq Ermənistanın torpaqlarımıza hərbi təcavüz faktının insanların hüquq və azadlıqlarının tam şəkildə təminatının, o cümlədən hüquq bərabərliyi prinsipinin həyata keçirilməsinin bütün ölkə üzrə tətbiqində ən ciddi maneə olduğunu diqqətə çatdırıb.

Sessiyada əhalinin həssas qruplarının, o cümlədən qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiəsi, gender bərabərliyi, dini etiqad azadlığının təmin olunması mövzuları ilə bağlı digər çıxışlar dinlənilib.

Konfransın "Hüquq bərabərliyinin təmin olunmasında və təşviqində milli insan hüquqları təsisatlarının rolu" mövzusunda ikinci sessiyasında da müxtəlif mövzularda çıxışlar edilib.

İyunun 21-də Ombudsmanların XV Bakı Beynəlxalq Konfransı başa çatıb. Yekunda Bəyannamə qəbul edilib.

# “Rəqəmsal reallıq şəraitində hüquq” mövzusunda XIII Beynəlxalq konfrans

**İyunun 6-7-də Moskva şəhərində "Rəqəmsal reallıq şəraitində hüquq" mövzusunda hüquqşünas alimlərin XIII Beynəlxalq konfransı keçirilib.**

Rusiya Federasiyası Hökuməti yanında Qanunvericilik və Müqayisəli Hüquq İnstitutunun dəvətinə əsasən tədbirdə ölkəmizin ədliyyə nazirinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü, hüquq elmləri doktoru, professor Azər Cəfərov iştirak edib.

Rusiya və bir sıra xarici dövlətlərdən 600-ə yaxın hüquqşünas alimin iştirak etdiyi konfrans plenar müşavirə, panel diskussiyalar, dəyirmi masa və seksiya iclasları şəklində keçirilib.

Plenar müşavirədə institutun direktoru, akademik Taliya Xabriyeva, Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa



Komissiyasının (CEPEJ) prezidenti Georq Stava, Rusiya Federal Məclisinin Federasiya Şurasının komitə sədri, hüquq elmləri doktoru, professor Andrey Klişas, Rusiya Federasiyasının ədliyyə nazirinin müavini, hüquq elmləri namizədi Denis Novak, akademik Vyaçeslav Stepin çıxış ediblər.

Tədbirdə Azərbaycan ədliyyə nazirinin müavini A.Cəfərov "Ədalət mühakiməsi prosesinin rəqəmsallaşdırılması: nailiyyətlər, perspektivlər, problemlər (Azərbaycanın təcrübəsi əsasında)" mövzusunda məruzə ilə çıxış edib.

Nazir müavini ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müxtəlif sahələrdə, o cümlədən məhkəmə fəaliyyətində rəqəmsal texnologiyanın tətbiqi üzrə həyata keçirilən tədbirlərdən danışıb. "Elektron Məhkəmə" informasiya sistemi, məhkəmələrin vahid internet portalı və orada yerləşdirilmiş məhkəmə prosesi iştirakçılarının şəxsi kabineti, məhkəmə rüsumlarının elektron ödəmə sistemi, məhkəmə qərarlarının vahid reyestri, onların imkanları və vətəndaşların məhkəmələrə əlçatımlığının asanlaşdırılması, habelə əmr icraatı üzrə işlərə artıq elektron qaydada baxılması və yaxın gələcəkdə yaradılması nəzərdə tutulan elektron arxivlər, hakimlərin və məhkəmələrin işinin qiymətləndirilməsi modulu və s. barədə məlumat verib.



Tədbir çərçivəsində institutun direktoru Taliya Xabriyeva ilə ayrıca görüş keçirilərək rəhbəri olduğu institutla ölkəmizin Ədliyyə Akademiyası arasında əməkdaşlığın genişləndirilməsi, birgə elmi tədbirlərin keçirilməsi məsələləri müzakirə edilib.

Eyni zamanda CEPEJ-in prezidenti Georq Stava ilə keçirilmiş görüşdə son zamanlar ədliyyə və məhkəmə sistemində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparılıb, əməkdaşlıq perspektivləri müzakirə olunub.

Dövlət başçısının məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq Moskvaya səfər zamanı Azərbaycanın nümayəndə heyəti bu sahədə təcrübə mübadiləsi məqsədi ilə Rusiya Federasiyası Ədliyyə Nazirliyi Məhkəmə ekspertizası mərkəzinə baş çəkilib, mərkəzin direktoru Svetlana Smirnova və bir sıra struktur qurumunun rəhbərləri ilə görüşlər keçirilib, ekspertiza fəaliyyətindəki yeniliklər, mərkəzin yeni infrastruktur layihələri ilə tanış olunub, maraq doğuran məsələlər üzrə fikir və təcrübə mübadiləsi aparılıb.

# Цифровизация процесса отправления правосудия: достижения, перспективы, проблемы

## *(на примере Азербайджанской Республики)*

**Азер ДЖАФАРОВ,**
**заместитель министра юстиции**
**Азербайджанской Республики,**
**член Судебно-правового совета**
**доктор юридических наук, профессор**

*"Учреждения и законы должны идти рука об руку с прогрессом человеческого ума - по мере развития человеческой мысли, по мере просвещения человеческого ума, по мере того, как создаются новые открытия, обнаруживаются новые истины, меняются мнения".*

**Томас Джефферсон (третий президент США)**

Цифровые технологии, развитие которых становится все стремительнее[1], все больше вторгаются в различные сферы жизнедеятельности общества, становятся неотъемлемой частью быта, отдыха и профессиональной деятельности человека. Как отметил премьер-министр Российской Федерации Дмитрий Медведев на пленарном заседании VIII Петербургского международного юридического форума, состоявшегося 16 мая 2018 г., "цифровые технологии активно приходят и в судебную сферу"[2].

Все это свидетельствует о том, что в ближайшей перспективе эффективное отправление правосудия без использования самых современных информационных технологий и инноваций, без создания высокотехнологичной судебной инфраструктуры, без адаптации норм и институтов различных отраслей права к цифровым технологиям, без широкого использования юридической инженерии в деятельности судов и т.д. станет достаточно сложным[3].

Как сказано в известном изречении, часто приписываемом Альберту Эйнштейну, настанет день, когда технология может превзойти наше человеческое взаимодействие.

Поэтому уже сегодня необходимо вплотную заняться созданием многофункциональной платформы электронного правосудия, выработать концепцию коренной модификации судебного процесса, перевода всех стадий судопроизводства на принципиально новые организационно-правовые рельсы, базирующиеся на стремительно развивающихся IT-технологиях.

Учитывая эти вызовы времени, в последние годы во многих странах мира ведутся интенсивные работы по внедрению цифровых технологий в деятельность судов, органов прокуратуры, адвокатуры и предварительного следствия, а также других правоприменительных органов. В результате этих исследований сегодня, к примеру, в Гондурасе, Швеции и ряде других государств все сделки в области нед-

*[1] Уместно отметить, что только за двадцать лет (с 1992-й по 2012-й) скорость компьютеров увеличилась в восемь тысяч раз. Об этом подробно см.: Виктор Садовничий: "По фундаментальным знаниям мы лидируем в мире". Беседа с ректором МГУ имени М.В. Ломоносова, президентом Российского Союза ректоров 24 мая 2018 г. http:// www. stoletie. ru/obschestvo /viktor_sadovnichij_po_fundamentalnym_znanijam_my_lidirujem_v_mire_311.htm*

*[2] Подробно см.: http://government.ru/news/32592/*

*[3] Так, по прогнозам специалистов, к 2030 г. 83% функций юристов и 79% функций судей будут замещены роботизированными технологиями. По мнению декана Бруклинской школы права Ника Алларда, в будущем раздел между человеком и роботом будет стёрт. Может быть, даже сложится так, что ваш пульт управления будет маленьким и вшит в вас, а у людей будут какие-то искусственные части. Это будет новый мир, который будет состоять не из людей против машин, а из хуботов: от human - "человек" и bot - "робот". //См. выступление Н. Алларда на пленарном заседании VIII Петербургского международного юридического форума 16 мая 2018 г. по ссылке: http://government.ru/news/32592/.*

вижимости реализуются посредством технологии блокчейн, а в Сингапуре уже несколько лет рассмотрение дел об административных проступках осуществляется без участия судьи.

Проблемы внедрения электронных коммуникаций и цифровых технологий в судебную деятельность, расширения границ автоматизации судопроизводства, исполнения судебных постановлений, введения дистанционного контроля над преступностью, автоматизированной системы назначения наказания и т.д. активно разрабатываются и на постсоветском пространстве.

Так, в России в последние годы все больше документов в суды подаются в электронном виде. Только за 2017 г. в электронном формате в суды общей юрисдикции поступило более 200 тыс., а в арбитражные - более 300 тыс. процессуальных обращений.

В декабре 2017 г. российским профессором Л.Бертовским было завершено исследование о переводе отправления правосудия по административным, гражданским, уголовным и другим делам на цифровые рельсы на основе технологии блокчейн, которая делает невозможными добавление фальшивого блока или изъятие существующего из системы, так как к записям могут получить доступ только следователь, у которого есть один закрытый ключ, и руководитель, у которого есть другой. Затем к этой информации получат доступ только те, кому один из этих пользователей предоставит свой закрытый ключ. Система позволит "подшивать" к делу все поступившие документы, протоколы следственных действий, решения суда или медицинские записи четко и в хронологическом порядке, благодаря чему ничего нельзя потерять, а все изменения, кем бы они ни были инициированы, будут как на ладони[4].

Другие российские исследователи О.Качалова и Ю.Цветков создали электронную технологию оформления уголовных дел на едином информационном портале, который содержит все данные расследования. Благодаря этому участники процесса смогут получать доступ к системе с момента обретения процессуального статуса (обвиняемого, потерпевшего, истца и так далее). На главной странице электронного уголовного дела размещается общая информация о деле, включая орган и конкретных должностных лиц, в производстве которых оно находится, а также сроки и названия статей, по которым возбуждено уголовное дело (предъявлено обвинение)[5].

Работа по внедрению цифровых технологий в судопроизводство активно ведется и в Республике Казахстан, где с января 2018 г. начался интенсивный процесс перевода уголовных дел в электронный вид. Там в ближайшей перспективе планируется "оцифровать" большинство процессов - начиная с поступления заявления и заканчивая назначением наказания. Так, по словам генерального прокурора Казахстана Ж.Асанова, в 2018 г. планируется провести полную цифровизацию всего уголовного процесса, начиная с момента поступления заявления, охватив все - следствие, судебные разбирательства и исполнение наказания.

При этом, по мнению генпрокурора, цифровой формат обеспечит дисциплину и точность в уголовном процессе. Сегодня бумажное ведение уголовных дел имеет риски фальсификации и замены материалов, несвоевременности действий всех процессуальных процедур, утери уголовного дела, и в целом уголовный процесс является закрытым. Решением этой проблемы станет разработка новой программы "Е-уголовное дело". Цифровизация уголовного процесса решит ряд вопросов, упростит процедуру сбора доказательств и составления процессуальных документов. Программа охватывает все стадии уголовного процесса - от регистрации преступления до исполнения наказания[6].

Аналогичные проекты разрабатываются и в других странах, а отдельные элементы "цифрового правосудия" уже внедрены в Грузии, в странах Прибалтики, в Саудовской Аравии и т.д.

В Азербайджане также ведутся активные организационно-правовые и научно-исследовательские работы по вопросам внедрения новейших технологий в различные области, в том числе в деятельность судов. При этом данный вопрос находится в поле зрения не только ученых-исследователей и Судебно-правового совета, являющегося независимым органом са-

---

[4] *Более подробно см.: Кирилл Кудрин. "Ударить блокчейном по судопроизводству". Информационно-аналитическое сетевое издание "ПРОВЭД" 10.01.2018. //http://xn--b1ae2 adf 4f. xn--p1ai/article/45798-udapity-blokcheynom-posudoppoizvodstvu.html Кирилл Кудрин. Указ. работа.*

[5] *Кирилл Кудрин. Указ. работа.*

[6] *"В 2018 году планируется оцифровать весь уголовный процесс". //https:// kapital.kz/ gosudarstvo /64611/v-2018-godu-planiruetsya-ocifrovat-ves-ugolovnyj-process. html*

моуправления судебной власти, но и стал одной из приоритетных задач правительства Азербайджанской Республики.

2013 год был объявлен Годом информационно-коммуникационных технологий, а в феврале 2014 года Распоряжением Президента Азербайджанской Республики была создана информационная система "Электронный суд", состоящий из ряда коммуникационных компонентов.

Одним из них является Единый судебный портал, который предоставляет физическим и юридическим лицам полную информацию о судебной системе, в том числе в форме интерактивной карты страны. Посредством него граждане могут получать информацию о структуре, разновидности судов, их юрисдикции, адресах и способах связи с ними (почтовый и электронный адреса, телефонные номера), а также о возрасте, образовании, юридическом опыте судей.

Наряду с этим, Портал обеспечивает граждан и информацией о размерах государственной пошлины, образцами исковых заявлений, жалоб, протестов и ходатайств для облегчения подготовки и подачи документов в суды. Будучи полностью интегрированным с информационной системой "Электронный суд", он в режиме реального времени отображает информацию о состоянии дел в судах, в том числе о количестве судебных дел, судебных слушаний, вынесенных решений по всем категориям дел и т.д.

Для обеспечения единого подхода к освещению деятельности судов в рамках данного Портала для каждого суда созданы индивидуальные веб-сайты, отображающие детальную информацию по судам[7].

В Едином судебном портале создан "Личный кабинет участника судебного процесса". Тем самым участники процесса получили возможность подавать электронные исковые заявления и другие документы, заверенные электронной подписью, более детально знакомиться с материалами судебного дела. Через Кабинет они могут дистанционно оповещаться (СМС, электронное письмо) о назначенных процессах, получать судебные решения в электронном формате (за электронной подписью судьи).

Матрица "Личного кабинета" создает для участников процесса и возможность электронного коммуницирования с судами (например, электронное оповещение суда о необходимости переноса рассмотрения дела и т.д.). Помимо этого, "Личный кабинет" позволяет гражданам отслеживать рассмотрение судебных дел, участниками которых они являются, по всем судебным инстанциям (первая, апелляционная и кассационная инстанции), ознакомляться с ходом исполнительного производства, получать электронное сообщение обо всех инициированных судебных делах в отношении них и т.д.

При обращении в суд из "Личного кабинета" возникает вопрос об оплате судебной пошлины, которую ранее можно было оплатить только через банк и строго в часы работы. Для решения этой проблемы в марте 2016 г. Министерство юстиции Азербайджана совместно с Центральным банком страны создало "Систему электронной оплаты судебных пошлин".

Сегодня эта система позволяет физическим и юридическим лицам оплачивать судебную пошлину онлайн с помощью банковской карты непосредственно в "Личном кабинете" при электронной подаче искового заявления, на "Государственном портале оплаты государственных пошлин", а также наличными через терминалы оплаты, установленными в зданиях судов. После электронной оплаты судебной пошлины вся информация аккумулируется в "Едином реестре судебных пошлин", созданном одновременно с упомянутой системой, что даёт возможность осуществить все необходимые финансовые отчёты по оплатам, а также производить проверку достоверности предоставленной в суд информации об оплате судебной пошлины.

Таким образом, Система и Реестр решают сразу несколько важных для судебной системы вопросов:

- облегчают обращение в суд;
- устраняют факты недобросовестного поведения истцов, в том числе случаи использования одной квитанции об оплате судебных пошлин в разных делах;
- обеспечивают более детальный финансовый учёт оплаты судебных пошлин и оценку эффективности судов и т.д.

Совместно с экспертами из Словении на базе "Электронный суд" была разработана и с марта 2017 года успешно применяется автоматизированная система рассмотрения судебных дел приказного производства. Суть этой системы заключается в том, что крупные истцы,

---

*[7] Подробно с Единым судебным порталом Азербайджанской Республики можно ознакомиться по ссылке: https://courts.gov.az/ru/main/page/Sudebnaa-vlast_2306*

адаптируя свои системы с информационной системой "Электронный суд", получают возможность подачи в суды электронных заявлений по делам приказного производства и получения в тот же или самое позднее на следующий день электронных судебных решений, несмотря на их огромное количество[8].

Рассмотрение данных дел в судах ведется одним судьей. Таким образом остальные судьи полностью освобождаются от нагрузки по рассмотрению дел приказного производства, что составляет около половины гражданских дел, рассматриваемых судами. Все решения, вынесенные по делам приказного производства, направляются в органы исполнения тоже в электронном виде. Это позволяет исполнять решения в автоматизированном порядке, обеспечивать судебных исполнителей достоверной информацией[9].

Все это привело, как и ожидалось, к значительному сокращению финансовых расходов.

Предварительный прогноз таков, что с задачей по рассмотрению дел этой категории по всей стране могли бы справится всего 4 судей и около 30 судебных работников, вместо 273 судей и 322 судебных работников, вовлеченных в этот процесс до применения электронной системы.

Процесс внедрения цифровых технологий в деятельность судов интенсифицировался с созданием в марте этого года в структуре информационной системы "Электронный суд" "Единой базы судебных решений".

Она представляет собой информационную систему, которая хранит в себе все заверенные электронной подписью судьи окончательные вердикты суда по конкретному делу. Обновление базы происходит в режиме реального времени - решение судьи попадает в нее посредством применения электронной подписи в информационной системе "Электронный суд".

Электронная система "Единая база судебных решений" позволяет осуществлять поиск по широкому спектру параметров - по типу дел, типу судов и конкретным судам, судьям, нормам законодательства и типам гражданских споров, практике применения международных договоров, конвенций и решений Европейского Суда по правам человека, степени тяжести деяния, видам вынесенных решений, обвинительным и оправдательным приговорам.

Функция поиска этой системы позволяет также детализировать поиск до уровня данных, характеризующих обвиняемого, но без раскрытия его личности - судимость, пол, возраст (несовершеннолетний) и т.д.

Основной целью этой базы является предоставление судьям, адвокатам, а также другим юристам возможности ознакомиться с судебными решениями. Это позволяет судьям формировать общую практику судебного разбирательства, а юристам, заранее ознакомившись с ними, правильно выстроить защиту и оценить вероятность успеха дела. На наш взгляд, это потенциально может способствовать и возникновению интереса к альтернативным способам решения гражданских споров, например, к медиации.

Современные информационные технологии широко применяются и в сфере управления судами. Благодаря проекту "Пульс суда: Революция в управлении", являющемуся составной частью информационной системы "Электронный суд", стали возможны подготовка различных аналитических отчетов на основе собранных электронных статистических данных, оценка деятельности суда и судей и определение продуктивности их работы за короткое время.

Этот проект, представляющий собой научно-обоснованную систему, позволяет Судебно-правовому совету, Министерству юстиции, вышестоящим судам, председателям судов и судьям моментально ознакомляться со статистическими, в том числе и обобщенными показателями суда, помогает правильно распределить между судами судебный бюджет, штаты судей и судебных работников[10].

В Азербайджане цифровые технологии активно внедряются и в уголовное судопроизводство. К примеру, с целью гуманизации уголовной политики, усиления контроля за условно-досрочно освобожденными из мест лишения свободы и условно осужденными, а также за лицами, в отношении которых избрана мера

---

[8] *К примеру, один из крупных пользователей судебными услугами за минуту подал в районный суд 300 электронных исков о неуплате задолженности и в течении 15 минут получил по всем ним судебные решения.*

[9] *Полагается, что было бы проще и более эффективно решать вопросы приказного производства посредством однотипной с ним исполнительной надписи, совершаемой нотариусами. В настоящее время рассматривается вопрос о передаче этой функции последним вместе с соответствующей электронной системой.*

[10] *Как более прогрессивный с точки зрения применения электронного управления в судебной системе, данный проект стал призером конкурса "Хрустальные весы правосудия" Совета Европы.*

пресечения в виде домашнего ареста, с апреля этого года применяется электронный браслет, позволяющий сотрудникам Службы пробации осуществлять круглосуточный дистанционный контроль за перечисленными лицами.

Внедрение этого мобильного электронного устройства в деятельность уголовной юстиции позволяет судам широко применять меры альтернативного наказания, не связанного с изоляцией от общества, существенно минимизировать меры процессуального принуждения, применяемые на досудебных стадиях уголовного процесса.

По мере расширения применения информационных технологий в процессе отправления правосудия развивается и соответствующее нормативное регулирование.

Наряду с организационно-правовыми методами внедрения цифровой технологии в деятельность судов, в Азербайджане ведутся и активные научно-исследовательские работы в этом направлении.

С целью упорядочения объема и предела судейского усмотрения при постановлении обвинительного приговора, минимизации необоснованно суровых и неоправданно мягких обвинительных приговоров и т.д. учеными разрабатывается электронная программа, призванная помочь судьям в вопросе определения оптимальной меры наказания виновному за совершенное им конкретное преступление. Изучается возможность применения цифровых технологий в деле контроля над преступностью, повышения раскрываемости преступлений, снижения количества неочевидных преступлений.

В ближайшей перспективе информационную систему "Электронный суд" планируется усовершенствовать путем расширения ее функциональности за счет создания: электронных архивов и оцифровки материалов судебных дел предыдущих лет; более обширной информационно-аналитической программы для обработки статистических материалов и автоматизированной подготовки аналитических отчетов; интеллектуального модуля по оценке деятельности судей и судов, в том числе по прогнозированию возможных в их деятельности потенциальных проблем; информационной подсистемы для пенитенциарной службы и т.д.

На пути создания электронного правосудия возникают и препятствия. Отсутствие единого подхода в применении судами отдельных процессуальных норм мешает нормальному функционированию системы в целом. Наблюдается нежелание некоторых государственных органов интегрироваться с данной системой. Неохотно подключаются к электронизации судов слишком консервативно настроенные председатели судов и судьи. Не в полную мощь работает система также из-за слабой информированности о ней и отсутствия соответствующих навыков пользователей (физических и юридических лиц). Зачастую возникают проблемы технического характера (например, несвоевременное внесение данных или не уведомление о возникших проблемах и т.д.).

Краткий обзор инновационных проектов, реализуемых в последние годы в судебной системе только одной страны - Азербайджана, показывает, что мировой высокотехнологический мейнстрим, который мы наблюдаем сегодня, в ближайшем будущем может привести к тому, что отправление правосудия по многим делам будет осуществляться преимущественно посредством цифровых технологий. Словом, как отметил председатель Конституционного суда Российской Федерации Валерий Зоркин в своей лекции, прочитанной для участников VIII Петербургского международного юридического форума, "мы можем однажды проснуться и понять, что того мира, в котором мы жили, больше нет"[11].

Этот прогноз можно в полной мере отнести и к сфере правосудия.

Но как бы далеко ни продвинулось применение технологий в различных сферах деятельности, в том числе в правосудии, человеческий фактор, несомненно, останется решающим. Как отметила заместитель генсекретаря Совета Европы Мод де Бур-Букиккиио, и после применения информационных технологий статуя правосудия будет все еще держать в руках меч и весы, а не телефон Блэкберри.

Действительно информатизация не может превратить неэффективно функционирующую систему в эффективную, но она может помочь хорошо функционирующей системе работать еще более эффективно и действенно.

---

[11] *Лекция главы Конституционного суда Валерия Зоркина. LF Daily (Legal Daily). Право ru. 18 мая 2018 г. // http: info@ parvo. ru.*

# Avropa Şurasına üzv ölkələrin həbsxana və probasiya xidmətləri rəhbərlərinin 23-cü konfransı



**İyunun 18-21-də Estoniyanın Yıhvi şəhərində Avropa Şurasının (AŞ) İnsan Hüquqları və Qanunun Aliliyi baş direktorluğunun təşkilatçılığı ilə üzv ölkələrin həbsxana və probasiya xidmətləri rəhbərlərinin 23-cü illik konfransı keçirilib.**

AŞ üzv və müşahidəçi ölkələrin həbsxana və probasiya xidmətlərinin, beynəlxalq təşkilatların yüksək vəzifəli şəxslərinin, eləcə də penitensiar sahədə çalışan və beynəlxalq səviyyədə tanınmış ekspertlərin iştirak etdiyi "Birlikdə səmərəli iş: Həbsxana və probasiya xidmətləri arasında idarəetmə və əməkdaşlıq modelləri" mövzusunda keçirilən konfransda ölkəmizi ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Nümayəndə heyətinə nazirliyin Probasiya xidmətinin rəisi Akşin Ziyadov və Penitensiar xidmətin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Mehman Sadıqov daxil ediliblər.

Estoniya Ədliyyə Nazirliyi Həbsxana Departamentinə cavabdeh baş katib müavini Priit Kamanın sədrliyi ilə keçirilən konfransın plenar iclasının açılışında AŞ İnformasiya cəmiyyəti və cinayətkarlığa qarşı mübarizə idarəsinin direktoru Yan Kleyssenin, Norveç İslah Xidmətinin baş direktoru Marian Vollanın çıxışları dinlənilib, Estoniya ədliyyə naziri Urmas Reunsalinin konfrans iştirakçılarına video-müraciəti nümayiş etdirilib.

Sonra toplantı öz işini ayrı-ayrı işçi iclaslar və seminarlar formatında davam etdirib. Tədbirlərdə işçilərin yerləşdirilməsi və komplektləşdirilməsi, xidmətlər, imkanlar və iş yükü, ictimai fəaliyyət, özəl xidmətlər, müxtəlif idarəetmə modelləri və xidmətə rəhbərlik mövzuları üzrə ekspertlərin çıxışları dinlənilib.

Ölkəmizin nümayəndə heyəti tərəfindən Penitensiar və Probasiya xidmətlərinin fəaliyyəti barədə verilən məlumatlar iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Plenar iclasın bağlanış mərasimində Macarıstan Penoloji Əməkdaşlıq Şurasının sədr müavini Atilla Yuhaç, İsveçrə Penoloji Əməkdaşlıq Şurasının sədri Dominik Lehner, Kipr Həbsxana Departamentinin direktoru Anna Aristotelus və Estoniya Ədliyyə Nazirliyi Həbsxana Departamentinə cavabdeh baş katib müavini Priit Kama yekun nitq söyləyiblər.

Sonda konfransda əldə edilmiş əsas nəticələri özündə əks etdirən ümumi sənəd qəbul olunub.

Səfər zamanı Avropa Şurasının və bir sıra üzv ölkələrin penitensiar və probasiya xidmətlərinin məsul şəxsləri ilə ikitərəfli görüşlər keçirilib. Görüşlərdə Azərbaycanın ədliyyə sistemində, o cümlədən penitensiar və probasiya sahəsində aparılan mütərəqqi islahatlar barədə müfəssəl məlumat verilib, əməkdaşlığa dair faydalı fikir mübadiləsi aparılıb.

Konfrans iştirakçılarına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair video materiallar təqdim edilib.

Səfər çərçivəsində, həmçinin Tallin şəhərində yeni inşa edilmiş istintaq təcridxanasının yerləşdiyi, eləcə də kişi, qadın və yeniyetmə məhkumlar üçün nəzərdə tutulan müasir Tallin Həbsxanasına baş çəkilərək yaradılmış şəraitlə tanış olunub.

# Azərbaycan "HELP" proqramının təşviqi üzrə onuncu yerə yüksəlib




**Strasburqda Avropa Şurasının (AŞ) Hüquqşünasların İnsan Hüquqları üzrə Tədrisi Proqramının (HELP) 2017-ci ilin yekunlarına dair hesabat konfransı keçirilib.**

Tədbirdə ölkəmizi Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov və HELP platformasının hakimlər üzrə əlaqələndiricisi Zülfiqar Babayev təmsil ediblər.

"Keyfiyyətli qərarlar üçün keyfiyyətli tədris" mövzusunda keçirilən konfransa Avropa Şurasına üzv ölkələrin ədliyyə akademiyaları və vəkillər kollegiyalarının nümayəndələri, HELP proqramının ölkələr üzrə təmsilçiləri qatılıblar.

Tədbirin açılışında AŞ baş katibinin müavini Qabriela Battaini-Draqoni və Parlament Assambleyasının sədri Mikele Nikoletti çıxış edərək HELP proqramının AŞ arealında fəaliyyət göstərən hüquqşünasların peşə vərdişlərinin inkişaf etdirilməsində əhəmiyyətini vurğulayıb, Şuranın konvensiyalarının öyrənilməsinin zəruriliyini diqqətə çatdırıblar.

Həmçinin İnsan Hüquqları üzrə Avropa Konvensiyasının yerli səviyyədə tətbiqində HELP proqramı üzrə keçirilən tədris tədbirlərinin əhəmiyyəti vurğulanıb.

Qeyd olunub ki, HELP proqramında distant kursların keyfiyyət və kəmiyyəti yenilənib. Proqrama "Qaçqın və miqrant uşaqların hüquqları", "Biotəbabətdə əsas insan hüquqları", "Yuvenal ədliyyə", "İnsan alveri ilə mübarizə", "Cinayət işləri üzrə beynəlxalq əməkdaşlıq", "Əlillərin hüquqları" və s. aktual mövzular üzrə tədris kursları əlavə olunub.

Tədbirdə HELP proqramının məşvərətçi şurasına yeni üzvlər seçilib.

Sonda AŞ-nin İnsan Hüquqları Baş Direktorluğunun insan haqları siyasəti və əməkdaşlıq departamentinin rəhbəri Mixail Lobov yerli tədris müəssisələrinin HELP proqramını öz dərs cədvəllərinə əlavə etmələri istiqamətində tövsiyələrini bildirib.

Konfransda ötən il AŞ-nin 47 üzv ölkəsində HELP-in təşviqinə dair reytinq cədvəli formalaşdırılıb. 2017-cü ilin yekunu üzrə ölkəmiz 47 ölkə arasında 10-cu yerə yüksəlib. Azərbaycan bu cədvəl üzrə Cənubi Qafqaz ölkələri arasında ilk sıradadır.

# Azərbaycanlı hakim Avropa Şurasının mükafatı ilə təltif olunub






**Strasburqda Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) geniş tərkibdə növbəti plenar iclası keçirilib.**

İclasda Avropa Şurasının 47 üzv dövlətini təmsil edən nümayəndələr, ədalət mühakiməsi sahəsində ixtisaslaşan müxtəlif beynəlxalq təşkilatların rəsmiləri və Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəliyinin əməkdaşları iştirak ediblər.

Plenar iclas çərçivəsində CEPEJ-in yaradılmasının 15 illiyi münasibətilə mərasim keçirilib. Avropa Şurası baş katibinin müavini Qabriela Battaini-Draqoni iclası açaraq CEPEJ-in 15 il ərzində əldə etdiyi nailiyyətlər münasibətilə tədbir iştirakçılarını təbrik edib. Avropada ədliyyənin inkişafı işində səmərəli və fasiləsiz fəaliyyət göstərmiş beş ölkənin - Almaniya, Andorra, Macarıstan, Latviya və Finlandiyanın nümayəndələri Avropa Şurası tərəfindən təltif olunub.

Tədbirdə həmçinin, CEPEJ-in vitse-prezidenti, azərbaycanlı hakim Ramin Qurbanov Avropa Şurası tərəfindən Avropada ədliyyənin inkişafındakı xidmətlərinə görə mükafatla təltif olunub.

# Bələdiyyələrə metodiki köməklik məqsədilə tədbirlər davam etdirilir

**İyunun 8-də Lənkəran regional ədliyyə idarəsinin təşkilatçılığı ilə Yardımlı rayonunda bələdiyyə üzvlərinin və qulluqçularının maarifləndirilməsi məqsədi ilə seminar-müşavirə keçirilib.**






Tədbirdə Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən islahatlar barədə məlumat verilərək, bələdiyyə nümayəndələrinin maarifləndirilməsinin və onlara metodiki kömək göstərilməsinin daim diqqət mərkəzində saxlanıldığı bildirilib, "Nağdsız hesablaşmalar və onların məqsədi", "Bələdiyyələrdə

və bələdiyyə müəssisələrində arxiv işinin təşkili" mövzusunda məruzələr edilib.

***

İyunun 29-da isə Şəki regional ədliyyə idarəsində qurumun ərazi yurisdiksiyasına daxil olan 6 rayonda fəaliyyət göstərən bələdiyyə sədrləri və mühasibləri üçün Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə birgə seminar-müşavirə keçirilib.

Tədbirdə GİZ-in və Ədliyyə Nazirliyi Bələdiyyələrlə iş mərkəzinin təmsilçiləri çıxış edib, "Turizmin inkişafında bələdiyyələrin rolu", "Bələdiyyələrdə yerli büdcənin tərtibində iqtisadi təsnifat kodlarının tətbiqi" mövzularında məruzələr oxuyublar.

Sonda iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb, "Yerli turizmin təşkilində bələdiyyələrin iştirakı" adlı kitab (metodik vəsait) paylanıb.

# Ədliyyə orqanlarında Uşaqların Beynəlxalq Müdafiə Günü qeyd olunub

**BMT Baş Assambleyasının müvafiq qərarına əsasən müəyyən edilmiş 1 İyun - Uşaqların Beynəlxalq Müdafiə Günü ölkəmizdə geniş qeyd edilir.**



Bu münasibətlə Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən Bakı şəhərində və respublikanın müxtəlif bölgələrində silsilə tədbirlər keçirilib.

Tədbirlərdə ictimaiyyət nümayəndələri fəal iştirak ediblər.

Təntənəli mərasimlərdə çıxış edənlər Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və 1 iyun - Uşaqların Beynəlxalq Müdafiə Günü münasibətilə iştirakçıları təbrik edib, müasir müstəqil dövlətçiliyimizin banisi ümummilli lider Heydər Əliyevin uşaqların hərtərəfli inkişafına yüksək qayğısından, dövlət uşaq siyasətinin ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilməsindən bəhs ediblər.

Həmçinin demoqrafik inkişafa ciddi təsir edən uşaq doğumunun qanunvericiliyə müvafiq olaraq qeydiyyata alınması sahəsində Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən mühüm tədbirlər barədə məlumat verilib.

Əlamətdar gün münasibətilə respublika üzrə ümumilikdə yeni anadan olmuş 834 uşağın doğumu onların doğulduğu tibb müəssisələrində təntənəli şəraitdə qeydiyyata alınaraq körpələrin valideynlərinə şəhadətnamələr təqdim olunub.

Tədbirdə iştirak edən yeni doğulan körpələrin valideynləri və yaxınları minnətdarlıqlarını ifadə ediblər.

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2, I kitab, maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12, I kitab, maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19; Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 969-VQD nömrəli, 2018-ci il 1 fevral tarixli 981-VQD, 984-VQD nömrəli, 13 fevral tarixli 1002-VQD nömrəli, 6 mart tarixli 1035-VQD və 1038-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 33.1.6-cı maddəyə "fövqəladə şəraitdə" sözlərindən sonra ", yaxud hərbi vəziyyət dövründə" sözləri əlavə edilsin.

2. 43.1-ci maddəyə "517-1," rəqəmlərindən sonra "517-2," rəqəmləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda 88.1.5-2-ci maddə əlavə edilsin:

"88.1.5-2. hərbi idarəetmə orqanlarının vəzifəli şəxsləri - hərbi vəziyyət rejiminin tələbləri pozulduqda;".

4. 89.3-cü və 89.6-cı maddələrə "Fövqəladə" sözündən sonra "və ya hərbi" sözləri əlavə edilsin.

5. Aşağıdakı məzmunda 517-2-ci maddə əlavə edilsin:

"Maddə 517-2. Hərbi vəziyyət rejiminin tələblərinin pozulması

517-2.1. Xüsusi icazə vərəqəsi və (və ya) şəxsiyyəti təsdiq edən sənəd olmadan komendant saatı vaxtında küçələrdə və ya digər ictimai yerlərdə olmağa görə -

xəbərdarlıq edilir və ya əlli manat məbləğində cərimə edilir.

517-2.2. Nəqliyyat vasitələrinin hərəkətinə qoyulmuş məhdudiyyətin pozulmasına görə -

fiziki şəxslərə xəbərdarlıq edilir və ya onlar otuz manatdan əlli manatadək məbləğdə, vəzifəli şəxslər yüz manatdan yüz əlli manatadək məbləğdə, hüquqi şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.

517-2.3. Rabitədən istifadə üçün müəyyən edilmiş xüsusi qaydaların pozulmasına görə -

fiziki şəxslərə xəbərdarlıq edilir və ya onlar otuz manatdan altmış manatadək məbləğdə, vəzifəli şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan iki min manatadək məbləğdə cərimə edilir.

517-2.4. Gündəlik tələbat mallarının, o cümlədən ərzaq və sənaye məhsullarının əldə olunmasına (satışına) tətbiq edilmiş xüsusi qaydaların pozulmasına görə -

fiziki şəxslərə xəbərdarlıq edilir və ya onlar otuz manatdan altmış manatadək məbləğdə, vəzifəli şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

517-2.5. Karantin tələblərinin, icbari sanitariya-gigiyena, epidemiya əleyhinə və baytarlıq tədbirlərinin pozulmasına görə -

fiziki şəxslər əlli manatdan doxsan manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min beş yüz manatadək məbləğdə cərimə edilir.

517-2.6. Hərbi vəziyyətin elan olunduğu ərazidə (ərazilərdə) tətbiq edilmiş xüsusi giriş-çıxış rejiminin, habelə yaşayış və ya olduğu yeri seçmək hüququna qoyulmuş məhdudiyyətin pozulmasına görə -

yüz manat məbləğində cərimə edilir.

517-2.7. Şəxslərin xüsusi icazə vərəqələrinin və şəxsiyyətini təsdiq edən sənədlərinin yoxlanılmasına, qanunda nəzərdə tutulmuş əsaslarla onların şəxsi əşyalarına, mənzillərinə və nəqliyyat vasitələrinə baxış keçirilməsinə maneçilik törədilməsinə görə -

fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər iki yüz manat məbləğində cərimə edilir.

517-2.8. Hərbi vəziyyət rejimini pozmaqda şübhə edilən mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlara məxsus bina və otaqların, nəqliyyat vasitələrinin yoxlanılmasına maneçilik törədilməsinə görə -

fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimə edilir.

517-2.9. Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, idarə, müəssisə və təşkilatların keçirildiyi xüsusi iş rejiminə əməl olunmamasına görə -

vəzifəli şəxslər üç yüz əlli manatdan beş yüz əlli manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min beş yüz manatadək məbləğdə cərimə edilir.

517-2.10. Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsi üçün tətbiq edilmiş xüsusi qaydaların pozulmasına görə -

yüz əlli manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

517-2.11. Müdafiə ehtiyaclarının yerinə yetirilməsini təmin etmək məqsədi ilə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, idarə, müəssisə və təşkilatların güc və əmək ehtiyatlarının (resurslarının) səfərbər olunmasına, səfərbərlik planlarına (tapşırıqlarına) uyğun olaraq onların istehsalat fəaliyyətinin növünün və ya iş rejiminin dəyişdirilməsinə maneçilik törədilməsinə görə -

fiziki şəxslər iki yüz manatdan üç yüz əlli manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş günədək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

517-2.12. Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, idarə, müəssisə və təşkilatların fəaliyyətinin tətil və ya digər üsullarla dayandırılmasının qadağan edilməsi ilə bağlı tələbin pozulmasına görə -

fiziki şəxslər iki yüz manatdan üç yüz əlli manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş günədək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan dörd min beş yüz manatadək məbləğdə cərimə edilir.

517-2.13. Yığıncaqlar, mitinqlər, küçə yürüşləri, nümayişlər və piketlərin, habelə digər kütləvi tədbirlərin keçirilməsi ilə bağlı qoyulmuş qadağa və ya məhdudiyyətə əməl olunmamasına görə-

fiziki şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla otuz günədək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər altı yüz manatdan doqquz yüz manatadək məbləğdə cərimə edilir, hüquqi şəxslər dörd min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

517-2.14. Silah, döyüş sursatı, xüsusi vasitələr, zəhərli və ya partlayıcı maddələrin satışı ilə bağlı qoyulmuş məhdudiyyətə və ya qadağaya, yaxud narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları və ya tərkibində güclü təsirə malik olan maddələr olan dərman preparatlarının, spirtli içkilərin dövriyyəsi üzrə müəyyən edilmiş xüsusi

rejimə əməl olunmamasına, habelə fiziki şəxslərdən odlu və soyuq silahın, döyüş sursatının, zəhərləyici və ya partlayıcı maddələrin, hüquqi şəxslərdən isə həmçinin təlim hərbi texnikasının və radioaktiv maddələrin müvəqqəti götürülməsinə maneçilik törədilməsinə görə -

fiziki şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla iki ayadək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər yeddi yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər dörd min beş yüz manatdan altı min beş yüz manatadək məbləğdə cərimə edilir.

517-2.15. Hərbi vəziyyətin elan olunduğu ərazidə (ərazilərdə) tətbiq edilmiş kütləvi informasiya vasitələrinin xüsusi fəaliyyət rejiminə əməl edilməməsinə görə -

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

517-2.16. Hərbi vəziyyət dövründə stasionar və ya müvəqqəti yaşayış yerlərində məskunlaşdırılması şərtilə əhalinin, təsərrüfat və sosial təyinatlı obyektlərin, maddi və mədəni sərvətlərin təhlükəsiz rayonlara təxliyə olunmasına (köçürülməsinə) maneçilik törədilməsinə görə -

fiziki şəxslər beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 may 2018-ci il*
*N 1094-VQD*

### Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 8-ci və 16-cı bəndlərini rəhbər tutaraq, "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 4, maddə 213; 2001, N 3, maddə 143, N 6, maddə 362, N 11, maddələr 672, 679, N 12, maddə 731; 2002, N 1, maddə 2, N 5, maddə 241, N 6, maddə 328; 2003, N 1, maddələr 9, 23; 2004, N 1, maddə 10, N 2, maddə 57, N 3, maddə 133, N 6, maddə 413, N 7, maddə 505, N 9, maddə 672, N 12, maddə 981; 2005, N 3, maddə 151, N 4, maddə 278, N 7, maddə 560, N 10, maddə 874, N 11, maddə 1001, N 12, maddə 1094; 2006, N 3, maddələr 220, 222, N 5, maddə 385, N 11, maddə 923, N 12, maddələr 1004, 1025, 1030; 2007, N 5, maddələr 401, 437, N 6, maddə 560, N 8, maddə 756, N 11, maddələr 1049, 1053; 2008, N 3, maddə 156, N 7, maddələr 600, 602, N 10, maddə 887, N 11, maddə 960; 2009, N 2, maddə 48, N 5, maddə 294, N 6, maddə 399, N 12, maddələr 949, 969; 2010, N 2, maddələr 70, 75, N 4, maddə 275; 2011, N 1, maddə 11, N 2, maddələr 70, 71, N 6, maddə 464, N 7, maddə 598; 2012, N 11, maddə 1054; 2013, N 2, maddələr 89, 101, N 11, maddə 1268; 2014, N 2, maddə 92, N 10, maddə 1162, N 11, maddə 1339, N 12, maddə 1527; 2015, N 2, maddə 97, N 3, maddə 250, N 6, maddə 680; 2016, N 2 (I kitab), maddələr 190, 201, N 5, maddə 847, N 11, maddə 1767; 2017, N 6, maddələr 1031, 1048; N 12 (I kitab), maddələr 2187, 2189; 2018, N 1, maddə 13) aşağıdakı dəyişikliklər edilsin:

1. 32-ci maddənin 4-cü hissəsinə "fəaliyyətinə xitam verilməsi" sözlərindən sonra "və ya fəaliyyətinin dayandırılması" sözləri əlavə edilsin.

2. 99-cu maddənin 2-ci hissəsinə "habelə"

sözündən əvvəl "hərbi vəziyyət rejiminin təmin edilməsi," sözləri əlavə edilsin.

3. 134-cü maddəyə aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin:

"6. Hərbi vəziyyət dövründə səfərbərlik planlarına (tapşırıqlarına) uyğun olaraq əmək məzuniyyəti başqa vaxta keçirilə bilər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 1 may 2018-ci il*
*N 1096-VQD*

### "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 8-ci və 10-cu bəndlərini rəhbər tutaraq, "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, N 11, maddə 387, N 12, maddə 454; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 3, maddə 226; 2001, N 11, maddə 683; 2002, N 8, maddə 463; 2004, N 2, maddə 57, N 5, maddə 321, N 8, maddə 598; 2005, N 4, maddə 278, N 6, maddə 464; 2006, N 3, maddə 225; 2007, N 11, maddələr 1049, 1053; 2010, N 4, maddə 276; 2012, N 5, maddə 414; 2014, N 11, maddə 1332; 2015, N 4, maddə 366; 2017, N 5, maddə 684) aşağıdakı məzmunda 16.4-1-ci maddə əlavə edilsin:

"16.4-1. Hərbi və ya fövqəladə vəziyyətin elan edilməsinə səbəb olmuş halların aradan qaldırılmasına və müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə mane olan siyasi partiyanın fəaliyyəti hərbi və ya fövqəladə vəziyyət başa çatanadək dayandırıla bilər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 1 may 2018-ci il.*
*N 1099-VQD*

### "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 8-ci və 10-cu bəndlərini rəhbər tutaraq, "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 10, maddə 710; 2001, N 9, maddə 576, N 11, maddə 675; 2003, N 1, maddə 16; 2005, N 4, maddə 278, N8, maddə 684, N 10, maddə 908; 2007, N 11, maddələr 1049, 1053; 2008, N 8, maddə 699; 2009, N 7, maddə 517, N 8, maddə 611; 2010, N 4, maddə 265; 2013, N 3, maddə 216; 2014, N 2, maddə 79, N 11, maddə 1359) aşağıdakı dəyişikliklər edilsin:

1. 31.3-cü maddə üzrə:

1.1. birinci cümlədə "Bu maddədə müəyyən olun-

muş" sözləri "Aşağıda göstərilən" sözləri ilə, cümlənin sonunda isə nöqtə işarəsi iki nöqtə işarəsi ilə əvəz edilsin;

1.2. ikinci cümlə ləğv edilsin.

2. Aşağıdakı məzmunda 31.3-1-ci maddə əlavə edilsin:

"31.3-1. Hərbi vəziyyətin elan edilməsinə səbəb olmuş halların aradan qaldırılmasına və müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə mane olan qeyri-hökumət təşkilatının, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyəti hərbi vəziyyət başa çatanadək dayandırıla bilər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 1 may 2018-ci il.*
*N 1101-VQD*

## "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının Qanununu "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

"Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, N 7, maddə 710; 2011, N 12, maddə 1088) aşağıdakı dəyişikliklər edilsin:

1. 13.1-ci maddədə "orta peşə-ixtisas və texniki-peşə təhsili" sözləri "peşə təhsili və əlavə təhsil" sözləri ilə əvəz edilsin.

2. 13.2-ci maddədə "tərbiyə" sözü "təhsil" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 18 may 2018-ci il*
*N 1146-VQD*

## "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq

edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanını "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 915-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 18 dekabr tarixli 1734 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

"Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 611; 2002, N 8, maddə 478; 2008, N 3, maddələr 168, 170, N 7, maddə 618; 2011, N 4, maddə 279; 2013, N 8, maddə 893; 2016, N 4, maddə 676; 2017, N 3, maddə 353; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 may tarixli 94 nömrəli Fərmanı) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2-ci bənddə "17-1.2, 17-1.7" rəqəmləri "15-2.2, 17-1.2, 17-1.7, 34.1" rəqəmləri ilə əvəz edilsin.

2. 3.3-cü bənddə "17-1.3," rəqəmləri "15-1.3, 17-1.3, 34.1-1 (ikinci halda)," sözləri ilə əvəz edilsin.

3. 3.5-ci bəndə "Məcəllənin" sözündən sonra "15-1.4.3-cü maddəsində, 51-1.2-ci maddəsinin üçüncü cümləsində," sözləri əlavə edilsin.

4. 3.8-ci bənddə "34.1 və 34.3-cü maddələrində" sözləri "34.1-ci maddəsinin birinci cümləsində, 34.1-1-ci maddəsində (birinci halda), 34.1-2-ci maddəsinin ikinci cümləsində və 37-ci maddəsində" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 iyun 2018-ci il*
*N 113*

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 915-VQD nömrəli Qanununun icrası ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 4, maddə 323, N 12, maddə 1034; 2007, N 11, maddə 1105, N 12, maddə 1246; 2009, N 7, maddə 533, N 8, maddə 627, N 10, maddə 773, N 12, maddələr 983, 988; 2010, N 2, maddə 83, N 4, maddə 292, N 11, maddə 966; 2011, N 1, maddə 18, N 2, maddə 85, N 4, maddə 281, N 6, maddə 497, N 10, maddə 894, N 11, maddə 993; 2012, N 10, maddə 950; 2014, N 6, maddə 627, N 7, maddə 820, N 9, maddə 1029; 2016, N 1, maddə 77; 2017, N 2, maddə 184, N 10, maddə 1784) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 8.10-1-ci yarımbənd əlavə edilsin:

"8.10-1. probasiya nəzarətinin həyata keçirilməsini təmin edir;".

2. 9.27-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"9.27. probasiya nəzarətinin həyata keçirilməsini təşkil etmək;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 iyun 2018-ci il*
*N 115*

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

**Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472.1 və 1306-cı maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair**

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyevin, maraqlı subyektlərin nümayəndələri Şəki Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri Ələddin Məcidov və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin böyük məsləhətçisi Fərid Hacıyevin, ekspert Bakı Dövlət Universitetinin Mülki hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Azad Talıbovun, mütəxəssis Bakı Apellyasiya Məhkəməsinin hakimi İsmayıl Xəlilovun iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472.1 və 1306-cı maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair Şəki Apellyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Salmanovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Şəki Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək ölmüş şəxsin hüquq varislərinin kreditorlar qarşısında hansı həcmdə məsuliyyət daşıması, zaminlərin ölmüş şəxsin öhdəliklərinə görə mülki məsuliyyətinin olub-olmaması, məsuliyyətin olacağı təqdirdə onun hansı həcmdə və hansı vaxtdan yaranması və yaxud borclunun ölümü ilə zaminliyə xitam verilib-verilməməsi məsələlərinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra - Mülki Məcəllə) 472.1 və 1306-cı maddələrinin tələbləri baxımından şərh olunmasını xahiş etmişdir.

Müraciətdə göstərilir ki, "AccessBank" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra - "AccessBank" QSC) Qəbələ Rayon Məhkəməsində iddia qaldıraraq Cumar Ağayev, Knyaz Məmmədov və digərlərindən müştərək qaydada bankın xeyrinə 6.249,39 ABŞ dolları əsas, 1.072,30 ABŞ dolları faiz və 1.400,67 ABŞ dolları cərimə olmaqla, cəmi 8.722,36 ABŞ dolları məbləğində kredit borcunun tutulması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

İddia tələbi onunla əsaslandırılmışdır ki, kreditor ilə borclu C.Ağayev arasında 21 may 2013-cü il tarixində bağlanmış kredit müqaviləsinə görə 120 ay müddətinə 30.000 ABŞ dolları məbləğində kredit xətti açılmışdır. 25 fevral 2014-cü il tarixli kredit razılaşması əsasında 24 ay müddətinə aylıq 2,25 faiz olmaqla 13.000 ABŞ dolları məbləğində kredit verilmişdir. Borclu 13 sentyabr 2015-ci il tarixində vəfat etdiyindən kredit borcu və faiz borcundan ibarət ödənilməli olan vəsaitlər banka ödənilməmiş və onun 6.249,39 ABŞ dolları məbləğində borcu

qalmışdır. Qeyd olunan kredit müqaviləsi üzrə borclunun öhdəliklərinin icrasının təmin olunması üçün zaminlik müqavilələri bağlanmış, həmin müqavilələrə görə K.Məmmədov, Y.Ağayev, M.Əliyeva və N.Əzimov öz üzərlərinə borclu C.Ağayev ilə birgə məsuliyyət götürmüşlər.

Cavabdeh C.Ağayev vəfat etdiyindən Qəbələ Rayon Məhkəməsinin 23 yanvar 2017-ci il tarixli qərardadı ilə o, hüquq varisləri olan arvadı Ç.Ağayeva, uşaqları S.Ağayev və E.Ağayev ilə əvəz edilmişdir.

Qəbələ Rayon Məhkəməsinin 29 avqust 2017-ci il tarixli qətnaməsi ilə iddianın qismən təmin edilməsi, hüquq varisləri Ç.Ağayeva, S.Ağayev və E.Ağayevdən müştərək qaydada "AccessBank" QSC-nin xeyrinə 6.249,39 ABŞ dolları məbləğində kredit borcunun tutulması, iddianın cavabdeh olan zaminlər K.Məmmədov və qeyrilərinə aid hissədə təmin edilməməsi qət edilmişdir.

Birinci instansiya məhkəməsi iddia tələbini həmin hissədə rədd edərkən qətnaməsini onunla əsaslandırmışdır ki, zaminlik müqaviləsi aksessor xarakterli olduğundan, kreditorun zaminə qarşı tələb irəli sürməsi üçün əsas öhdəlik pozulmalıdır, hazırkı işdə isə C.Ağayevin öldüyü vaxtadək əsas öhdəlik pozulmadığından Mülki Məcəllənin 442, 448.1, 470, 472.1, 739.1 və 1306.1-ci maddələri tətbiq edilməlidir.

"AccessBank" QSC apellyasiya şikayəti verərək birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsi, əsas borcun, faiz və cərimənin C.Ağayevin hüquq varisləri və zaminlərindən müştərək qaydada tutulması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

Şəki Apellyasiya Məhkəməsi mülki işə baxarkən qanunvericiliyin müvafiq normalarında qeyri-müəyyənliklərin və həmin məsələlərlə bağlı məhkəmə təcrübəsində müxtəlif yanaşmaların olduğunu nəzərə alaraq, Mülki Məcəllənin bəzi maddələrinin Konstitusiya Məhkəməsi tərəfindən şərh edilməsi zərurətinin yarandığı qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, müraciətdə qaldırılan məsələlərə aydınlıq gətirilməsi üçün, ilk növbədə, mülki qanunvericiliyin öhdəlik hüququ, borc, zaminlik müqaviləsi, eləcə də vərəsəlik hüququ ilə bağlı bir sıra normaları təhlil edilməlidir.

Öhdəlik hüquq münasibətləri əmlak xarakterlidir və səlahiyyətli şəxsin mənafeyi bilavasitə borclu şəxsin üzərinə düşən vəzifələri yerinə yetirməsi ilə təmin olunur.

Mülki Məcəllənin 385.1-ci maddəsinə görə, öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və i.a. və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır.

Mülki Məcəllənin 386.1-ci maddəsinə əsasən, öhdəliyin zərər vurulması, əsassız varlanma və ya bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisna olmaqla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır. Müqavilə öhdəlik hüquq münasibətlərinin yaranmasını şərtləndirən mühüm hüquqi faktlardan biridir. Həmin Məcəllənin 389.1-ci maddəsinə görə, mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması müqavilə sayılır. Beləliklə, tərəflər müqavilə bağlamaqla maraqlarına, mənafelərinə uyğun hüquq və vəzifələr müəyyən edirlər. Müqavilənin məqsədini isə tərəflərin öz vəzifəsini, yəni öhdəliyini icra etməsi təşkil edir.

Müqavilədən yaranan öhdəliklərin növlərindən biri borc müqaviləsindən əmələ gələn öhdəliklərdir. Mülki Məcəllənin 739-cu maddəsinə müvafiq olaraq, borc müqaviləsinə görə, iştirakçılardan biri (borc verən) pula və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər iştirakçıya (borc alana) keçirməyi öhdəsinə götürür, digər iştirakçı (borc alan) isə aldıqlarını müvafiq olaraq pul və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borc verənə qaytarmağı öhdəsinə götürür. Borc müqaviləsinin predmeti hər hansı pul məbləği olduqda, o, kredit müqaviləsi adlandırılır.

Kredit müqaviləsinə əsasən, kreditor müqavilə ilə nəzərdə tutulmuş həcmdə və şərtlərdə pulun (kreditin) borcluya verilməsi öhdəliyini, borclu isə bu məbləğin qaytarılması və faizlərin ödənilməsi öhdəliyini öz üzərinə götürür.

İqtisadi dövriyyənin normal fəaliyyət göstərməsi, sabitlik və dayanıqlılığın, müqavilə hüquq münasibətləri iştirakçılarının qarşılıqlı inam və etimadının təmin edilməsi üçün öhdəliklərin vicdanla icra edilməsi zəruridir. Öhdəliklərin icra edilməməsi, o cümlədən lazımınca icra edilməməsi riskinin azaldılması üçün Mülki Məcəllənin XXIV fəslində

təminat üsulları nəzərdə tutulmuşdur. Məcəllənin 460.1-ci maddəsinə görə, öhdəliklərin icrası girov, dəbbə pulu, borclunun əmlakının saxlanması, zaminlik, qarantiya, beh ilə və bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulan digər üsullarla təmin edilə bilər.

Mülki dövriyyədə öhdəliklərin icrasının təmin edilməsinin daha çox istifadə olunan üsulu kimi zaminlik müqaviləsi üzrə zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür (Mülki Məcəllənin 470.1-ci maddəsi). Zaminlik müqaviləsi kreditorla zamin arasında bağlanılır və zamin əsas borclunun öz öhdəliyini icra etməməsi və ya lazımınca icra etməməsi halında, həmin öhdəliyi icra edəcəyinə dair öz üzərinə vəzifə götürür. Bununla da gələcəkdə əsas borclu tərəfindən öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda kreditor zaminə qarşı həmin öhdəliyin icrası barədə tələb irəli sürmək hüququ əldə etmiş olur. Zaminlik müqaviləsi əsas öhdəlikdən asılı olan aksessor xarakterli müqavilədir, əsas müqavilənin etibarsız hesab edilməsi və ya xitamı, öz növbəsində, bu müqavilənin də xitamına səbəb olur.

Mülki Məcəllənin 472-ci maddəsində göstərilir ki, borclu zaminliklə təmin edilmiş öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, əgər bu Məcəllədə və ya zaminlik müqaviləsində zaminin subsidiar məsuliyyəti nəzərdə tutulmayıbsa, zamin və borclu kreditor qarşısında birgə məsuliyyət daşıyırlar. Əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, faizlərin, borc tutulması üzrə məhkəmə xərclərinin və borclunun öhdəliyi icra etməməsi və ya lazımınca icra etməməsi nəticəsində kreditora dəyən digər zərərin əvəzinin ödənilməsi də daxil olmaqla, zamin kreditor qarşısında borclu ilə eyni həcmdə məsuliyyət daşıyır.

Göründüyü kimi, qanunverici zaminin məsuliyyətinin iki növünü fərqləndirmişdir:

- birgə məsuliyyət;
- subsidiar məsuliyyət.

Birgə (solidar, latınca "solidus"- tam, bütöv) məsuliyyətin başlıca cəhəti ondan ibarətdir ki, zaminlik müqaviləsi üzrə bu məsuliyyət növü razılaşdırıldığı halda kreditor əsas öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi təqdirdə öz istəyi və mülahizəsi ilə tələbini, eyni zamanda, həm əsas borcluya, həm də birgə məsuliyyət daşıyan zaminə və ya onlardan birinə qarşı yönəldə bilər.

Subsidiar (latınca "subsidiarius" - ehtiyat, yardımçı) məsuliyyət zamanı zaminliklə təminat altına alınmış öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi təqdirdə kreditor, ilk növbədə, əsas borcluya qarşı tələb irəli sürməli, onun tərəfindən öhdəliyin icrasının təmin edilməsi üçün mümkün vasitələrdən istifadə etməli, məhkəmədə iddia qaldıraraq borclunun müqavilədən irəli gələn vəzifələrinin məcburi icrasına və (və ya) dəymiş zərərin əvəzinin ödənilməsinə yönəlmiş zəruri hərəkətləri etməlidir. Yalnız bundan sonra öhdəliyin icra edilməsi ilə bağlı tələb subsidiar məsuliyyət daşıyan zaminə qarşı irəli sürülə bilər.

Zaminliyin xitamı əsasları isə Mülki Məcəllənin 477-ci maddəsində nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən, zaminliyə aşağıdakı hallarda xitam verilir:

- zaminliyin təmin etdiyi öhdəliyə xitam verildikdə, habelə zaminin razılığı olmadan həmin öhdəlik dəyişdirildikdə və bu dəyişdirilmə onun məsuliyyətinin artmasına və ya onun üçün digər əlverişsiz nəticələrə səbəb olduqda;

- əgər zamin yeni borclu üçün cavabdeh olmaq barəsində kreditora razılıq verməmişsə, zaminliklə təmin edilmiş öhdəlik üzrə borc başqa şəxsə keçirildikdə;

- kreditor borclunun və ya zaminin təklif etdiyi lazımi icranı qəbul etməkdən imtina etdikdə;

- zaminlik müqaviləsində göstərilmiş onun verilmə müddəti qurtardıqda. Belə müddət təyin edilmədikdə zaminliyə onun təmin etdiyi öhdəliyin icrası vaxtının çatdığı gündən bir il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir. Əsas öhdəliyin icrası müddəti göstərilmədikdə və müəyyənləşdirilə bilmədikdə və ya tələbetmə məqamı ilə müəyyənləşdirilə bildikdə zaminliyə zaminlik müqaviləsinin bağlandığı gündən iki il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir.

Göründüyü kimi, zaminlik müqaviləsinin xitamı əsaslarının dairəsi məhdud olmaqla qanunvericilikdə dəqiq müəyyən edilmişdir. Mülki Məcəllənin 477-ci maddəsində borclunun ölümü zaminlik müqaviləsinə xitam verilməsi əsası kimi nəzərdə tutulmadığından, borclu öldüyü halda da zamin təmin etdiyi öhdəliyə görə məsuliyyətli olmaqda davam edir. Bu həm də ondan irəli gəlir ki, zaminlik müqaviləsi ilə zamin kreditor qarşısında əsas

müqavilə üzrə öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi riskini öz üzərinə götürür və bu riskin reallaşacağı təqdirdə kreditora mənafeyini təmin edəcəyinə dair zəmanət verir. Yəni borclunun ölümü səbəbindən əsas öhdəliyin icra edilməməsi də zaminin təminat verdiyi risklər dairəsinə daxildir.

Həmçinin qeyd olunmalıdır ki, bir çox hallarda zamin şəxsi münasibətlərdən irəli gələrək borclunun öhdəliyinin icrası ilə bağlı kreditor qarşısında məsuliyyət götürür. Lakin zaminlə borclu arasında mövcud olan bu münasibətlər zaminlik müqaviləsinin hüquqi əsasını təşkil etmir. Bu müqavilənin hüquqi əsasını zaminin əsas öhdəliyin icra ediləcəyinə dair məsuliyyəti üzərinə götürməsi, kreditora öhdəliyin icrasına dair zəmanət verməsi təşkil edir.

Müraciətedən göstərir ki, bəzən borclunun ölümü və miras əmlakın vərəsələr tərəfindən qəbulu borcun başqa şəxsə keçirilməsi kimi qiymətləndirilir və zamin yeni borclu üçün cavabdeh olmaq barəsində kreditora razılıq vermədikdə, zaminliklə təmin edilmiş öhdəlik üzrə borcun başqa şəxsə keçirilməsi əsası ilə zaminlik müqaviləsinə xitam verilir. Bununla bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, Mülki Məcəllənin 477-ci maddəsində nəzərdə tutulmuş "borc başqa şəxsə keçirildikdə" ifadəsi borclunun öz iradəsi ilə əsas müqavilə üzrə hüquq və öhdəliklərini başqa şəxsə keçirməsi halını ehtiva edir. Belə ki, Mülki Məcəllənin 522-ci maddəsinə görə, kreditor ilə müqaviləyə əsasən öhdəlik üçüncü şəxsə verilə bilər; bunun nəticəsində o, əvvəlki borclunu əvəz edir. Əgər borclu ilə öhdəliyin üçüncü şəxsə veriləcəyi barədə razılaşma əldə edilərsə, bu, yalnız kreditorun icazəsi ilə etibarlı olur. Göründüyü kimi, müqavilə üzrə borclunun hüquq və vəzifələrinin üçüncü şəxsə keçirilməsi borclunun iradəsi və kreditorun buna razılıq verməsi ilə baş verir. Bu halda həmin müqavilənin icrasını təmin etmək məqsədi ilə bağlanmış zaminlik müqaviləsinin hüquqi qüvvəsinin davam etməsi üçün zaminin razılığı mütləqdir. Borclunun ölümü halında isə onun hüquq və vəzifələri universal hüquq varisliyi qaydasında mirası qəbul etmiş vərəsələrə keçmiş olur. Yəni bu halda əsas müqavilə üzrə hüquq və vəzifələr tərəflərin iradəsindən asılı olmayaraq, borclunun ölümü və vərəsələrin mirası qəbul etməsi ilə sonunculara keçmiş olur.

Borclunun ölümü ilə onun öhdəliklərinin aradan qalxmasının və bununla da bağlanmış müqavilələrin hüquqi təminatdan məhrum olmasının qarşısının alınmasına xidmət edən institutlardan biri vərəsəlik institutudur. Vərəsəlik hüququ ölmüş şəxsin əmlakının və bununla bağlı hüquq və vəzifələrinin qanun üzrə və ya vəsiyyət üzrə vərəsələrə keçməsi qaydalarını müəyyənləşdirən hüquq normalarının məcmusudur. Mülki Məcəllənin 1151-ci maddəsinə müvafiq olaraq, mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir. Yəni mirası qəbul etmiş vərəsələr universal hüquq varisliyi qaydasında miras qoyanın öhdəliklərini də qəbul etmiş olurlar.

Mülki Məcəllənin 558-ci maddəsinə əsasən, əgər borclunun şəxsi iştirakı olmadan icra mümkün deyilsə, onun ölümü öhdəliyin xitamına səbəb olur. Həmin Məcəllənin 1153-cü maddəsinə görə, şəxsi xarakter daşıyan və yalnız miras qoyana mənsub ola bilən əmlak hüquqları və vəzifələr, habelə qanunda və ya müqavilədə nəzərdə tutulan, yalnız kreditorun və borclunun sağlığında qüvvədə olan və onların ölümü ilə xitam verilən hüquq və vəzifələr mirasın tərkibinə daxil deyildir. Beləliklə, şəxsi xarakterli hüquq və vəzifələr vərəsəlik qaydasında ölmüş şəxsin vərəsələrinə keçmir. Borclunun kredit müqaviləsindən irəli gələn vəzifələri isə şəxsə bağlı olmayan və şəxsən icranı tələb etməyən, üçüncü şəxslər tərəfindən icrası mümkün olan əmlak xarakterli öhdəliklərdir. Bu səbəbdən də kredit müqaviləsi üzrə borclunun ölümü ilə onun öhdəliklərinə xitam verilmir və bu öhdəliklər miras qoyanın vərəsələri tərəfindən icra edilməlidir.

Belə ki, Mülki Məcəllənin 1306-cı maddəsinə uyğun olaraq, vərəsələr miras qoyanın mövcud olan və onun ölümü ilə xitam olunmayan bütün öhdəlikləri üzrə qəbul etdikləri miras əmlakdakı paylarına mütənasib surətdə birgə borclu kimi məsuliyyət daşıyırlar. Həmin Məcəllənin 1146-cı maddəsi miras qoyanın öldüyü günün və ya fiziki şəxsin ölmüş elan edilməsi barədə məhkəmə qərarının qüvvəyə mindiyi günün mirasın açıldığı vaxt sayıldığını müəyyən edir. Mülki Məcəllənin 1255-ci maddəsinə əsasən isə qəbul edilmiş miras onun açıldığı gündən vərəsənin mülkiyyəti sayılır.

Göstərilən normaların məzmunundan çıxış edərək Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, mirası qəbul etmiş vərəsələr miras açıldığı gündən öhdəliyin icrasına görə məsuliyyət daşıyırlar.

Lakin nəzərə alınmalıdır ki, vərəsələr miras əmlak ilə bağlı sərəncam hüququnu bir çox hallarda mirasın açıldığı andan həyata keçirə bilmirlər. Belə ki, Mülki Məcəllənin 1246-cı maddəsinə görə, vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirası qəbul edə bilər. Miras açıldığı gündən altı ay keçdikdən sonra mirasın qəbuluna yol verilmir. Vərəsə mirasın açıldığı yer üzrə notariat kontoruna mirası qəbul etdiyi barədə ərizə verdikdə və ya əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktik başladıqda və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdikdə miras vərəsə tərəfindən qəbul edilmiş sayılır. (Mülki Məcəllənin 1243.2-ci maddəsi). Göründüyü kimi, qanunverici vərəsələrə miras açıldığı gündən üç ay ərzində mirası qəbul etmək imkanı vermiş və bu müddətin altı aya qədər uzadılmasını istisna etməmişdir. Bu baxımdan vərəsələr, bir qayda olaraq, miras açıldığı gündən altı ay ərzində əmlaka dair sərəncam vermək hüququna malik olmadığından, miras qoyanın kreditorları qarşısında öhdəliklərinin icrasını həyata keçirə bilmirlər.

Qeyd edilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, miras qoyanın kreditorları tərəfindən vərəsələrə qarşı öhdəliyin icrası ilə bağlı tələb irəli sürülərkən mirasın qəbulu ilə bağlı qanunvericilikdə müəyyən edilmiş müddətlər nəzərə alınmalıdır.

Müraciətdə qaldırılan borclunun ölümü halında onun öhdəliklərinə görə məsuliyyətin zamin və ya vərəsələr tərəfindən icra edilməli olması məsələsi ilə bağlı göstərilməlidir ki, zaminlik müqaviləsi aksessor xarakterli olmaqla əsas öhdəliyə təminat üsulu kimi çıxış edir. Bu səbəbdən də zaminin zaminlik müqaviləsi üzrə öhdəliyi "əlavə öhdəlik" mahiyyəti daşıyır. Yəni kreditorun zamindən öhdəliyin icrasını tələb edə bilməsi üçün, ilk öncə, borclunun, eləcə də onun vərəsələrinin öz vəzifələrini icra etməməsi və ya lazımınca icra etməməsi tələb olunur. Yalnız bundan sonra zaminə qarşı zaminlik müqaviləsindən irəli gələn öhdəliyin icrası barədə tələb irəli sürülə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu borclunun ölümü halında mirası qəbul etmiş vərəsələrin miras qoyanın öhdəlikləri üzrə borcluya çevrildiyini nəzərə alaraq hesab edir ki, ilk növbədə, mirası qəbul etmiş vərəsələr miras qoyanın kreditoru qarşısında məsuliyyət daşımalıdırlar. Vərəsələr əsas öhdəliyi icra etməkdən yayındıqları və ya lazımınca icra etmədikləri təqdirdə, eləcə də miras əmlakın həcmi vərəsələrə əsas öhdəliyi icra etməyə və ya lazımınca icra etməyə imkan vermədikdə, pozulmuş mənafeyinin təmin edilməsi üçün kreditorun zaminə qarşı tələb irəli sürmək hüququ yaranır.

Qanunverici öhdəliyi icra etmiş zaminin mənafelərinin müdafiəsini nəzərə alaraq, Mülki Məcəllənin 475.1-ci maddəsində kreditorun tələbini ödədiyi həcmdə sonuncunun borcluya qarşı malik olduğu hüquqların öhdəliyi icra etmiş zaminə keçdiyini müəyyən etmişdir. Yəni zamin öhdəliyi icra etdikdən sonra ona dəymiş zərərin əvəzini reqres qaydasında borcludan tam həcmdə, borclu öldüyü halda isə vərəsələrdən onlara çatan miras payı həcmində ödənilməsini tələb edə bilər.

Vərəsələrin məsuliyyətinin həddi ilə bağlı qeyd olunmalıdır ki, miras qoyanın borcuna görə vərəsələrin məsuliyyəti mirasın həcmi ilə məhdudlaşır. Belə ki, Mülki Məcəllənin 1306.1-ci maddəsinə əsasən, vərəsələr miras qoyanın kreditorlarının mənafelərini alınmış aktivdə özlərindən hər birinin payına mütənasib surətdə birgə borclu kimi tam ödəməyə borcludurlar.

Vərəsələrdən fərqli olaraq, zaminin məsuliyyətinin həddi miras əmlakın dəyəri ilə məhdudlaşmır. Bu isə zaminin məhz öhdəliyin borclu tərəfindən icra edilməməsinə görə müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, kreditorun mənafeyinin tam təmin edilməsinə məsuliyyətli olmasından irəli gəlir.

Xarici ölkələrin qanunvericiliyinə nəzər yetirdikdə, əksər ölkələrdə məhz bu yanaşmanın qəbul edildiyini görmək olar. Almaniya Federativ Respublikasının Mülki Qanunnaməsinə əsasən, əsas borclu öldükdə, zamin borclunun vərəsəsinin məhdud öhdəlik daşımasına istinad edə bilməz (Mülki Qanunnamənin 768.1-ci maddəsi).

Rusiya Federasiyasının Mülki Məcəlləsinə əsasən, borclunun ölümü, borclu hüquqi şəxsin yenidən təşkili zaminliyin xitamına səbəb olmur (Mülki Məcəllənin 367-ci maddəsinin 4-cü hissəsi).

Azərbaycan Respublikası Mülki Məcəlləsinin zaminliyə xitam verilməsi hallarını nəzərdə tutan 477-ci maddəsində borclunun ölümü halının zaminlik münasibətlərinin hüquqi qüvvəsinə təsiri məsələsi tənzimlənməmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndində mülkiyyət hüququ, o cümlədən dövlət, xüsusi və bələdiyyə mülkiyyətinin hüquqi rejimi, əqli mülkiyyət

hüququ; digər əşya hüquqları; öhdəlik hüququ barədə qaydaların müəyyən edilməsi Azərbaycan Respublikası Milli Məclisinin (bundan sonra - Milli Məclis) səlahiyyətinə aid edilmişdir.

Qeyd olunanlara əsaslanaraq, Konstitusiya Məhkəməsinin Plenumu zaminliyə xitam verilməsini tənzimləyən Mülki Məcəllənin 477-ci maddəsinin qanunverici tərəfindən təkmilləşdirilməsini məqsədəmüvafiq hesab edir.

Zamin və vərəsələrin əsas borca görə hesablanan faizlərə dair məsuliyyətli olub-olmaması məsələsinə gəlincə isə qeyd olunmalıdır ki, Mülki Məcəllənin 399.3-cü maddəsinə əsasən, müqavilədə nəzərdə tutula bilər ki, müqavilənin qüvvədə olma müddətinin qurtarması tərəflərin müqavilə üzrə öhdəliklərinin xitamına səbəb olur. Belə şərtin olmadığı müqavilə öhdəliyin icrasının qurtarmasının həmin müqavilədə müəyyənləşdirilmiş anına qədər qüvvədə sayılır. Göründüyü kimi, müqavilənin müddətinin bitməsi, əks hal razılaşdırılmadığı təqdirdə tərəflər arasında müqavilə münasibətlərinin sona çatmasına səbəb olmur, tərəflər arasında öhdəlik münasibətləri davam edir, kreditor yenə də borcludan müqavilədən irəli gələn öhdəliklərin icrasını tələb etmək səlahiyyətinə malik olur.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, kredit müqaviləsi üzrə borclunun ölümü də tərəflər arasında mövcud olan müqavilə münasibətlərini başa çatdırmır və əsas borca görə faizlər hesablanmaqda davam edə bilər.

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2008-ci il 18 noyabr tarixli 34 nömrəli Protokolu ilə təsdiq edilmiş "Banklarda kreditlərin verilməsi" Qaydalarına uyğun olaraq hər bir bank kredit riski və kreditlərin verilməsi üzrə bankların daxili strategiya və qaydalarına dair minimum tələbləri müəyyən edən bankdaxili qaydalarında kreditlərin verilməsi meyarları, onların ödəniş müddətləri və şərtləri, borcun tutulması, ayrı-ayrı kreditlər və onların müxtəlif növləri üzrə faiz dərəcələrinin hesablanması, güzəştlər, kreditlərin növlərindən və gecikdirilmə müddətindən asılı olaraq faizləri hesablanmayan statusa keçirilməsi halları və s. məsələləri tənzimləyən müddəalar nəzərdə tutmalıdır.

Göründüyü kimi, borclunun ölümündən sonra faizlərin hesablanmasının davam etməsi və ya dayandırılması, yəni güzəştlərin tətbiqi məsələsi bankdaxili qaydalara uyğun olaraq müəyyənləşdirilə bilər. Lakin o da nəzərə alınmalıdır ki, mülki hüququn mühüm prinsiplərindən biri də vicdanlılıq prinsipidir. Mülki Məcəllənin 5.3-cü maddəsinə əsasən, mülki hüquq münasibətlərinin subyektləri öz hüquq və vəzifələrini vicdanla həyata keçirməyə borcludurlar. Yəni kreditorlar borclu öldüyü halda faizlərin hesablanmasının davam edib-etməməsi məsələsinə baxarkən vicdanlılıq prinsipindən çıxış etməli, miras qalmış əmlakın həcmi, vərəsələrin maddi durumu və s. kimi halları nəzərə almalıdırlar.

Dəbbə puluna görə zamin və vərəsələrin məsuliyyətli olub-olmaması məsələsi ilə bağlı qeyd olunmalıdır ki, Mülki Məcəllənin 462.1-ci maddəsinə müvafiq olaraq, dəbbə pulu (cərimə, penya) müqavilə ilə müəyyənləşdirilən, öhdəliyin icra edilmədiyi və ya lazımınca icra edilmədiyi, o cümlədən icranın gecikdirildiyi halda borclunun kreditora ödəməli olduğu pul məbləğidir. Maddənin məzmunundan göründüyü kimi, dəbbə pulu öhdəliyin icrasının təmini üsulu olmaqla yanaşı, həm də borclunun öz öhdəliyini icra etməməsi və ya lazımınca icra etməməsinə görə tərəflərin müəyyən etdiyi məsuliyyət növüdür. Öhdəliyin icrasının təmini üsulu, eləcə də öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsinə görə məsuliyyət növü olaraq dəbbə pulunun borclunun ölümündən sonra müqavilənin icrasını davam etdirəcək zamin və vərəsələrə münasibətdə də tətbiqi mümkündür. Lakin nəzərə alınmalıdır ki, məsuliyyətin bir növü olaraq dəbbə pulunun ödənilməsini kreditor yalnız borclunun, borclu öldüyü halda isə vərəsə və ya zaminin təqsiri olduğu təqdirdə tələb edə bilər. Belə ki, Mülki Məcəllənin 462.2-ci maddəsinə əsasən, əgər borclu öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün məsuliyyət daşımırsa, kreditor dəbbə pulunun ödənilməsini tələb edə bilməz. Beləliklə, öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsində vərəsələr və ya zaminin təqsiri olduğu halda kreditor dəbbə pulunun ödənilməsi ilə bağlı tələbi bu hərəkətləri törətmiş şəxsə qarşı irəli sürə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu şərh olunan məsələ ilə bağlı məhkəmələrdə xeyli sayda mübahisələrin mövcudluğunu nəzərə alaraq və kreditlərin qaytarılması üzrə gələcəkdə yarana biləcək problemlərin qarşısını almaq üçün kredit verilərkən kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından sığorta etdirilməsini məqsədəmüvafiq hesab edir. Bu, həmçinin "Fiziki şəxslərə

təqdim edilən müəyyən könüllü sığorta növləri üzrə vahid sığorta qaydaları haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 22 aprel tarixli 398 nömrəli Sərəncamından da irəli gəlir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Mülki Məcəllənin 470, 472-ci, eləcə də 1146, 1255 və 1306-cı maddələrinə uyğun olaraq, borclunun ölümündən sonra, ilk növbədə, mirası qəbul etmiş vərəsələr miras açıldığı gündən onlara çatan miras payı həcmində miras qoyanın kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar. Miras qoyanın kreditorları tərəfindən vərəsələrə qarşı öhdəliyin icrası tələbi irəli sürülərkən, mirasın qəbulu ilə bağlı qanunvericilikdə müəyyən edilmiş müddətlər nəzərə alınmalıdır.

- Borclunun ölümü zaminliyin xitamına səbəb olmur. Zaminin ölmüş borclunun kreditorları qarşısında məsuliyyətinin həddi miras əmlakın həcmi ilə məhdudlaşmır. Əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, vərəsələr öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, eləcə də miras əmlakın həcmi vərəsələrə öhdəliyi icra etməyə imkan vermədikdə, zamin kreditor qarşısında tam məsuliyyət daşıyır.

- Vərəsələr və zamin borclu öldükdən sonra əsas borcdan əlavə, faiz borcuna görə də məsuliyyət daşıyırlar. Borclunun təqsirli hərəkətləri nəticəsində öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda hesablanmış dəbbə pulunun ödənilməsi ilə bağlı tələb kreditor tərəfindən bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş qaydada vərəsələr və ya zaminə qarşı irəli sürülə bilər. Vərəsələr və ya zaminin təqsirli hərəkətləri nəticəsində öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi təqdirdə kreditor dəbbə pulunun ödənilməsini bu hərəkətləri törətmiş şəxsdən tələb edə bilər.

- Mülki Məcəllənin zaminliyə xitam verilməsi hallarını nəzərdə tutan 477-ci maddəsinin bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla təkmilləşdirilməsi Milli Məclisə tövsiyə edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 470, 472-ci, eləcə də 1146, 1255 və 1306-cı maddələrinə uyğun olaraq, borclunun ölümündən sonra, ilk növbədə, mirası qəbul etmiş vərəsələr miras açıldığı gündən onlara çatan miras payı həcmində miras qoyanın kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar. Miras qoyanın kreditorları tərəfindən vərəsələrə qarşı öhdəliyin icrası tələbi irəli sürülərkən, mirasın qəbulu ilə bağlı qanunvericilikdə müəyyən edilmiş müddətlər nəzərə alınmalıdır.

2. Borclunun ölümü zaminliyin xitamına səbəb olmur. Zaminin ölmüş borclunun kreditorları qarşısında məsuliyyətinin həddi miras əmlakın həcmi ilə məhdudlaşmır. Əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, vərəsələr öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, eləcə də miras əmlakın həcmi vərəsələrə öhdəliyi icra etməyə imkan vermədikdə, zamin kreditor qarşısında tam məsuliyyət daşıyır.

3. Vərəsələr və zamin borclu öldükdən sonra əsas borcdan əlavə, faiz borcuna görə də məsuliyyət daşıyırlar. Borclunun təqsirli hərəkətləri nəticəsində öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda hesablanmış dəbbə pulunun ödənilməsi ilə bağlı tələb kreditor tərəfindən bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş qaydada vərəsələr və ya zaminə qarşı irəli sürülə bilər. Vərəsələr və ya zaminin təqsirli hərəkətləri nəticəsində öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi təqdirdə kreditor dəbbə pulunun ödənilməsini bu hərəkətləri törətmiş şəxsdən tələb edə bilər.

4. Azərbaycan Respublikası Mülki Məcəlləsinin zaminliyə xitam verilməsi hallarını nəzərdə tutan 477-ci maddəsinin bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

5. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

6. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

7. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 4 iyun 2018-ci il*